www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 6 may 2016-cı il Cümə № 98 (6419) Qiymәti 60 qәpik

Xəbər

**"Cahangir Hacıyev həbsdən azad edilir" iddiası**

yazısı səh.11-də

Gündəm

**Ermənistan separatçı qurumu tanıma məsələsini ertələdi - səbəb**



Bakını şantaj siyasətinin əsas hədəfi; düşmən ölkə prosedura başlasa da, qərar verməyə qorxur; Azərbaycanın xəbərdarlığının ardınca Kremldən də məsələyə reaksiya gəldi

yazısı səh.6-da

**Hacı Məmmədovu Qobustan həbsxanasında çətin görüşlər gözləyir**

yazısı səh.13-də

**Bakıdan İslam dövlətlərindən dəstək çağırışı**

yazısı səh.12-də

**İlqar Məmmədovun deputatlığa namizəd olmasına MSK-dan "stop"**

yazısı səh.7-də

**Tanınmış politoloq XİN-i sərt tənqid etdi: "Sanki Mavritaniya..."**

yazısı səh.12-də

**Moskvada terror planlaşdıran İŞİD-çilərdən biri Azərbaycandan gedib**

yazısı səh.3-də

**Ərəb şeyxləri Azərbaycana niyə investisiya yatırmadı?**

yazısı səh.11-də

**Rusiyanın həm sülh, həm silah siyasətinin pərdəarxası**

yazısı səh.8-də

**Tural Abbaslı Müsavatdan istefa verdi**

yazısı səh.3-də

**AB Türkiyə üzərindən vizanı götürdü - bəs Azərbaycan...**

yazısı səh.9-da

**Nemət Pənahlı yeni həbs təhlükəsindən danışdı**

yazısı səh.13-də

## Qarabağdakı 4 günlük müharibənin siyasi diktəsi

# AZƏRBAYCAN REFERENDUM İDEYASINDAN ÇƏKİLİR - "SIFIR VARİANTI" ANONSU

Sülh prosesini konstruktiv məcraya yönəltmək üçün Bakı unikal fürsətə malikdir; separatçı qurumun tanınması ətrafında gedən oyunların daha bir pərdəarxası; işğalçı aprel məğlubiyyətindən sonrakı ilk danışıqlardaca Azərbaycanın iradəsini görməlidir, əks halda...




yazısı səh.9-da

## Həbsdəki general Tağı Əhmədovla üzləşdirilməsini tələb edir

Akif Çovdarova pulun harada, kimin vasitəsilə verilməsi haqda ziddiyyətlər ortaya çıxıb

yazısı səh.13-də



**Davudoğlunun istefasının arxasındakı sirlər**

yazısı səh.4-də



*Kamran Həsənli:*

**"Bu gün televiziyalar antivətənpərvərlik təbliğatı ilə məşğuldular"**

yazısı səh.10-da



**Mehriban Vəzir Milli Şuradan çıxarıldı-400 min manat skandalı**

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 98 (6419) 6 may 2016



# Prezidentin nüfuzu 96 faizə qədər artıb

**Azərbaycan Prezidenti İlham Əliyevin nüfuzu Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ və digər ərazilərdə gərginlik artandan sonra artıb. "Trend"in məlumatına görə, Amerikanın nüfuzlu müstəqil qeyri-hökumət təşkilatı "Arthur J. Finkelstein & Associates" (AJF) tərəfindən keçirilən ictimai rəy sorğusunda 96 faizdən artıq respondent bildirib ki, "Azərbaycan Prezidentinə etibar" artıb və onun fəaliyyətini respondentlər "əla", yaxud "yaxşı" qiymətləndiriblər.**

# Pedaqoji Universitetin rektoru vəzifəsindən azad edildi

**Prezident İlham Əliyev Yusif Məmmədovun Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb. Musavat.com xəbər verir ki, sərəncamla Yusif Əbülfət oğlu Məmmədov Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru vəzifəsindən azad edilib.**

# Qarabağ qaziləri cəbhəyə yola düşdü

**Bir qrup Qarabağ müharibəsi veteranlarının cəbhə bölgəsinə səfəri başlayıb. Onlar cəbhə bölgəsində yerləşən hərbi hissələri ziyarət edəcək, şəxsi heyətlə görüşəcəklər. Müdafiə Nazirliyindən axar.az -a verilən məlumata görə, yola düşməzdən əvvəl veteranlar Müdafiə Nazirliyində olublar.**

Nazirliyin yüksək rütbəli zabitlərin iştirakı ilə keçirilən görüşdə aprelin əvvəllərində ordumuzun əldə etdiyi uğurlardan, əməliyyatlar zamanı əsgərlərimizin hünər və rəşadətindən danışılıb.

Bildirilib ki, mənəvi-psixoloji vəziyyətin yüksəldilməsi və tərbiyəvi işin təşkilində Qarabağ müharibəsi əlillərinin və veteranlarının rolu əvəzsizdir. Onlar mütəmadi olaraq cəbhə bölgəsində yerləşən hərbi hissələrdə olurlar. Bu cür səfərlərin sistemli şəkildə olması məqsədəuyğundur. Şəxsi heyətlə mütəmadi görüşlərin keçirilməsi vacibdir.

Onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirən Qarabağ müharibəsi əlilləri və veteranları müharibə illərini xatırlayıb, dayandıqları səngərlərdə Vətənin keşiyi çəkən əsgərlərlə görüşməyin əhəmiyyətini vurğulayıblar. Veteranlar işğal altında qalan ərazilərimizin Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında tezliklə azad olunacağına əminliklərini bildiriblər.

bakcell

# Velosipedlə dünya səyahətinə çıxan azərbaycanlıya «Bakcell» şirkətindən dəstək

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti bildirir ki. velosipedlə dünya turuna çıxan azərbaycanlı səyyah Tural Abbasov səfər boyu "Bakcell"in intrenet, zəng və SMS xidmətindən istifadə edəcək.**

**2016-cı ilin yanvarında Bakıdan Çin istiqamətində yola düşən velosipedçi səyyah artıq 10200 km-dən çox məsafə qət edərək Orta Asiyadan keçib. Hazırda Tailandda olan Tural «Bakcell»in rouminq xidməti vasitəsilə öz səyahət təcrübəsini http://velotural.az/ və https://www.facebook.com/velotural/ səhifələrində bölüşür.**

**"Səfər zamanı güvənli və keyfiyyətli mobil rabitə çox vacib amillərdən biridir. Rouminq xərclərimi öz üzərinə götürdüyünə görə «Bakcell» şirkətinə təşəkkürümü bildirirəm. Bu, mənim üçün maddi dəstəkdən daha çox velosiped və velosəyahət mədəniyyətinin inkişafına və təbliğinə verilən töhfənin, mənim və mənim kimi insanların işinə olan diqqətin nümunəsidir. Bu yaxşı göstəricidir və ümid edirəm ki, Azərbaycandakı başqa şirkətlər də «Bakcell» şirkətindən nümunə götürəcək",-deyə Tural Abbasov bildirib.**

**Azərbaycanlı veloşəyyahın səfər təəssüratlarını həmçinin "Bakcell"in rəsmi "Facebook" səhifəsindən izləyə bilərsiniz: https://www.fb.com/Bakcell/**

# Oqtay Gülalıyev Mehriban Vəzirin ittihamlarına cavab verdi

**Xəbər verdiyimiz kimi, Milli Şuranın mayın 5-də keçirilən Koordinasiya Mərkəzinin iclasında yazıçı-publisist Mehriban Vəzir şura üzvlüyündən çıxarılıb.**



M.Vəzir məsələ ilə bağlı musavat.com-a açıqlamasında Oqtay Gülalıyevin adını hallandıraraq, onu Milli Şura rəhbərliyinə yalan məlumat verməkdə ittiham edib.

Məsələ ilə bağlı Oqtay Gülalıyevin də fikirlərini aldıq. O.Gülalıyev musavat.com-a bildirdi ki, Mehriban Vəzirin Milli Şura üzvlüyündən çıxarılması ilə bağlı qərar artıq verilib: "Bu baxımdan əlavə deyəcək bir sözümüz də yoxdur. Milli Şuranın qərarı ortadadır. O, necə düşünürsə, öz hüququdur. Mehriban xanımın fikirlərinə hörmət edirəm. Ancaq qeyd etdiyim kimi, Milli Şura bu məsələni müzakirə edib və müvafiq qərarını verib. Bütün məsələlər ətraflı şəkildə müzakirə edilib. Sadəcə olaraq, mən həmin qərarlar haqqında danışmaq istəmirəm. O, özü daha yaxşı bilir ki, bu qərar nə üçün və necə qəbul olunub".

**Mehriban Vəzirin açıqlama tələb etdiyi 400 min vəsaitə gəlincə isə O.Gülalıyev aşağıdakıları bildirib:**

"Hesab edirəm ki, bağlı qrupda yazılan və deyilən fikirlər kənar müstəvilərdə müzakirə olunmamalıdır. Kimsə onu müzakirəyə çıxarırsa, bu, onun öz məsuliyyətidir".

Qeyd edək ki, M. Vəzir məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, hər şey Oqtay Gülalıyevin Milli Şura rəhbərliyinə ünvanladığı müraciətdən qaynaqlanıb. Onun sözlərinə görə, O.Gülalıyev, İctimai Birliklərin Mədən Sənayesində Şəffaflığın Artırılması (MSŞA) Koalisiyasının 18-ci ümumi yığıncağından sonra Milli Şura rəhbərliyinə ünvanlandığı elektron məktubda bildirib ki, bütün müqavimətə, antitəbliğata, ayrılan 400 min manata baxmayaraq hakimiyyət Şura və Monitorinq Qrupu seçkilərində məğlubiyyətə uğradı. M.Vəzir bildirib ki, koalisiyanın şura üzvü, eyni zamanda sabiq koordinatoru Əliməmməd Nuriyevdən bu məsələ ilə bağlı izahat tələb etdiyi halda, onu Milli Şuradan çıxarıblar.

**Əli RAİS**

# Rusiyada cinayət törədən şəxslər Azərbaycanda yaxalandı

**Rusiyanın cinayət törətməkdə təqsirləndirilən iki vətəndaşı Azərbaycanda saxlanılıb. Bu haqda Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən modern.az saytına verilən məlumatda qeyd olunub. Həmin şəxslər Nicat Məmmədov və Səfər Hüseynovdur. Bildirilib ki, Baş Cinayət Axtarış İdarəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Rusiya Federasiyası Cinayət Məcəlləsinin 111-ci maddəsi (qəsdən sağlamlığa ağır zərər vurma) ilə axtarışda olan Nicat Məmmədov saxlanılıb. Həmçinin Baş Cinayət Axtarışı İdarəsi və Şəmkir RPŞ əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Rusiya Federasiyası Cinayət Məcəlləsinin 161-ci maddəsi (soyğunçuluq) ilə axtarışda olan Səfər Hüseynov saxlanılıb.**

# Dağıstanın dövlət başçısı Bakıya gələcək

**Dağıstan Respublikasının rəhbəri Ramazan Abdulatipov gələn həftə Azərbaycana səfər etməyi planlaşdırır.**

Dağıstanın dövlət başçısı səfəri zamanı Azərbaycanın rəsmi şəxsləri ilə bir sıra görüşlər keçirəcək. Bu görüşlərdə ikitərəfli əməkdaşlığın möhkəmləndirilməsi məsələləri müzakirə ediləcək.

Məlumata görə, R.Abdulatipov mayın 12-də Bakıda Dağıstan Mədəniyyət Günlərinin açılış mərasimində iştirak edəcək, eləcə də Azərbaycanda yaşayan həmvətənləri ilə görüş keçirəcək. ("Report")

# Gəncədə çayxanada qumbara partladı-2 ölü

**Gəncədə əl qumbarasının partladılması nəticəsində 2 nəfər ölüb, 3 nəfər isə yaralanıb. APA-nın qərb bürosunun verdiyi məlumata görə, Elbrus Allahverdiyev küçəsində (Abbas Səhhət yaşayış massivi) yerləşən çayxanada şəhər sakinləri, 1972-ci il təvəllüdlü Məhərrəm Əhmədovun əlindəki "F-1" tipli qəlpəli əl qumbarasının partlaması nəticəsində özü və qardaşı oğlu, 1985-ci il təvəllüdlü Taleh Əhmədov hadisə yerində ölüblər.**

M. Əhmədovun oğlu, 1998-ci il təvəllüdlü Nəriman Əhmədov, qardaşı oğlu, 1994-cü il təvəllüdlü Orxan Mirzəyev və 1975-ci il təvəllüdlü Sadiq Əhmədov müxtəlif qəlpə yaraları ilə Abbas Səhhət adına xəstəxanaya yerləşdiriliblər. Onların vəziyyətlərinin normal olduğu bildirilir.

Məlumata görə, hadisə mübahisə zəminində baş verib. Qarşı tərəfdən mübahisədə iştirak edən bir neçə nəfər saxlanılıb.

Faktla bağlı Gəncə Şəhər Prokurorluğunda araşdırma başlanıb.

# Bakı rusiyalı turistlərin ən çox səyahət etdikləri 10 şəhərdən biridir

**Rusiya turistlərinin cari ilin may ayının əvvəlində ən çox səyahət etdiyi şəhərlərin reytinqi açıqlanıb. Mədəniyyət və Turizm Nazirliyinin saytında bildirilir ki, Rusiyanın "travel.ru" saytının məlumatına əsasən, reytinq 30 aprel - 4 may tarixlərində hotel və hostellərdə bronlaşdırmaya əsaslanıb.**

Sayt yazır ki, rus turistlər Bakıda 1 sutka ərzində orta hesabla 3 min rubl və ya 68 manat xərcləyiblər.

Müqayisə üçün qeyd edək ki, qonşu ölkənin turistləri 1 sutka ərzində Belarus və Polşada 2 min rubl və ya 45 manat, Sinqapur və Londonda isə 10 min rubl və ya 227 manat xərcə düşüblər.

Ümumiyyətlə, rus turistlərin qeyd edilən vaxt kəsiyində ən çox axın etdiyi şəhərlərin ilk onluğu bu cürdür: Minsk, Riqa, Praqa, Tallin, Bakı, Vilnüs, Tbilisi, Roma, Helsinki və Belqrad.


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.




# ABŞ hökumətinin dəstəyi ilə Goranboyda tibb məntəqəsi açılıb

**Mayın 5-də Goranboy rayonunun Əzizbəyov kəndinin sakinləri icmanın 930-a yaxın əhalisinə xidmət edəcək yeni tibb məntəqəsinin tikintisinin başa çatmasını qeyd etmək üçün bir araya gəliblər. Tədbirdə yerli icra hakimiyyəti və bələdiyyə nümayəndələri, İqtisadiyyat Nazirliyinin və Səhiyyə Nazirliyinin rəsmiləri, ABŞ səfirliyi və ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) iştirak ediblər. Bu layihə Sosial-İqtisadi İnkişaf Fəaliyyəti (SEDA) adlı proqram çərçivəsində Şərq-Qərb İdarəetmə İnstitutu (EWMI) tərəfindən icra olunub və USAID və Azərbaycan hökumətləri tərəfindən birgə maliyyələşib.**

1988-ci ildən tibb məntəqəsi kimi istifadə edilən köhnə iki otaqlı inzibati bina EWMI/SEDA layihəsinin dəstəyilə yeni tibb məntəqəsi kimi inşa edilib. Üç müayinə otağı və gözləmə otağı kimi istifadə olunan bir dəhlizdən ibarət yeni məntəqə icmanın 930-a yaxın sakininin gündəlik sağlamlıq durumunu yaxşılaşdıracaq.

# Şirvanda yanacaqdoldurma məntəqəsinə basqın olub

**Şirvanda yanacaqdoldurma məntəqəsinə basqın olub, məntəqənin operatoruna xəsarət yetirilib.**

İki naməlum şəxs mayın 4-dən 5-nə keçən gecə Hacıqabul-Bəhrəmtəpə magistralının üstündə, Şirvan şəhəri ərazisində yerləşən "Nur" yanacaqdoldurma məntəqəsinə basqın edərək, məntəqənin əməkdaşı, Sabirabad rayonu Qaragüney kənd sakini, 1987-ci il təvəllüdlü Əhmədov Elvin Əzim oğluna ağır bədən xəsarətləri yetirib. Basqınçılar kassadan 453 manat götürərək qaçıblar. E.Əhmədov burun sümüyünün sınığı və digər xəsarətlərlə Şirvan Şəhər Xəstəxanasına yerləşdirilib, ona ilkin tibbi yardım göstərilərək evə buraxılıb.

Polis hadisəni törədənlərin tapılması istiqamətində əməliyyat-istintaq tədbirləri həyata keçirir. Faktla bağlı araşdırma aparılır. (APA)

YENİ MÜSAVAT
N 98 (6419) 6 may 2016

**ABŞ prezidentliyinə namizəd Donald Trampın rəqibi, Ohayo qubernatoru Con Kasiç seçki kampaniyasını dayandırdığını elan edib. Bununla da "qalmaqallı siyasətçi" kimi tanınan milyarder Donald Tramp yeni qələbəsini qazanıb.**

# Azərbaycanlı milyonçular Trampı dəstəkləyir?

## Natiq Miri: "Biznes adamlarının onu müdafiə eləməsi başa düşüləndir, çünki..."

Hadisə ilə bağlı maraqlı məqam ondan ibarətdir ki, tanınmış müğənni və azərbaycanlı iş adamı Emin Ağalarov sosial şəbəkədə Trampla birlikdə fotosunu paylaşaraq onu bu qələbə münasibətilə təbrik edib. O bildirib: "O deyib ki, əgər mən qaçsam, böyük ehtimalla qələbə çalaram və bu adam heç vaxt uduzmur. Biz bunu bilirdik və buna indi əminik".

Belə çıxır, azərbaycanlı milyonçular Trampı dəstəkləyirlər?



**Politoloq Natiq Miri "Yeni Müsavat"a bildirdi ki, Tramp biznes adamıdır, bu baxımdan milyonçuların onu dəstəkləməsi başa düşüləndir:** "Lakin o, həm daxili, həm də xarici siyasətlə bağlı çox təcrübəsiz biridir. Tramp dövlətçilikdən isə ümumiyyətlə, uzaq təfəkkürə malik insandır. Hər şeyə mənfəət prizmasından yanaşdığı üçün bu cür insanların Amerika kimi hegemon ölkələrin başına gəlməsi hesab edirəm ki, doğru olmazdı. Ona görə də milyonçuların, xüsusilə biznes adamlarının müəyyən mənada Trampın yönündən çıxış etməsi başa düşüləndir. Bu mənada ki, biznesdə yalnız mənfəət təfəkkürü var. Burada ədalət, hüquq deyə bir şey yoxdur. Eyni zamanda sosial ədalət də mövcud deyil. Onlar yalnız hər şeyə ticarət prizmasından baxırlar. Biznesmenlərin dövlət başına gəlməsi dövlətlər üçün bəzən faciəvi sonluqla bitir. Bunu onların özləri də anlamalıdırlar. Çünki əsas dövlətin yönəticisi olan şəxsdir. Bu şəxslərdə də mütləq mənada bütöv təfəkkür formalaşmalıdır. Azərbaycan milyonçularının da Trampı dəstəkləməsi doğru yanaşma deyil".

**Ekspertə görə, Trampın hakimiyyət başına gəlməsi nəinki Amerikaya, hətta bütün dünyaya xoş gələcək vəd etmir:** "Eyni zamanda onun Rusiyaya da olan münasibəti normal deyil. Rusiya kimi avtoritar, aqressiyaya yönəlik bir dövlətin müdafiə olunması, gələcək dünya birliyinə müsbət mənada heç nə vəd edə bilməz. Məhz bu səbəbdən məsələyə biznes, ticarət prizmasından baxmaq doğru deyil. Əksinə, insanlıq, mənəviyyat, gələcək dünyanın qlobal problemləri prizmasından baxmaq gərəkdir. Bütün bunlara görə düşünmürəm ki, azərbaycanlı milyonçular Trampı dəstəkləyəcəklər. Əgər dəstəkləmiş olsalar belə, bu, Amerika siyasətində heç nəyi dəyişəcək deyil. İnanmıram ki, Amerika toplumu öz səsini Trampa versin".

❑ **Əli RAİS**



# Müğənni İlhamə Quliyevanın oğluna qarğış etdi

## "Allah ondan da pis günə qoysun!"

**Əməkdar artist Firuzə İbadova xalq artisti İlhamə Quliyevanın oğlu Orxan Nadirovun ona 4500 manat pul borclu olduğunu bildirib. Firuzə İbadova teleqraf.com-a açıqlamasında Orxan Nadirovun borcunu qaytarmadığını bildirib: "Orxan Nadirov və Vüqar Bəkirov mənə pul borcludurlar. Hər ikisi məndən İlhamənin yanında 7000 min pul aldılar. 2500 manatını qaytardılar, 4500 manatı qalıb. Bunu Allah götürməz. Onlar əgər mənim pulum qaytarmasalar pis günə düşəcəklər. Çünki mən təmiz adamam. Mənim həyat yoldaşım, sevgilim, oğlum yoxdur. Məni aldatmaq asandır və insanları çox sevirəm. Amma onlar mənə qarşı nankorluq edirlər. O məni yandırır. Orxan deyir ki, pul məndə deyil, Vüqardadır. Vüqar isə deyir ki, Orxandadır. Pul bu insanların ikisindədir. Verin mənim pulumu və mən də evimin pulunu ödəyim. Onları Allaha tapşırmışam. Allah onları ondan da pis günə qoysun!"**

Məsələyə aydınlıq gətirmək üçün mərhum müğənninin oğulluğu Orxan Nadirovla əlaqə saxladıq. Orxan Nadirov məsələ ilə bağlı danışmaq istəmədiyini və bu barədə vəkili Habil Vəliyevə müraciət etməyimizi istədi.

**Vəkil isə musavat.com-a açıqlamasında bunları dedi:** "Ola bilsin ki, kiminsə kimsə borcu olsun. Amma inanmıram ki, Firuzə xanım bu məsələni ictimailəşdirsin. Firuzə xanım onların ailə dostudur. İndi hansısa bir çətinlik yaranında dost-tanışın yanında... belə şeylərə birtəhər baxıram".

❑ **Xalidə GƏRAY**



# Tural Abbaslı Müsavatdan istefa verdi

## Gənc siyasətçi öz partiyasını yaradacaq

**Müsavat Partiyasının üzvü Tural Abbaslı mayın 5-də partiyadan istefa verib. Musavat.com xəbər verir ki, T.Abbaslı istefa barədə bəyanatı mətbuata göndərib.**

Müsavat Partiyasının Divanına göndərilən ərizədə T.Abbaslı 16 il partiyada fəaliyyət göstərdiyinə diqqət çəkib. "Mən 2000-ci ildən Müsavat Partiyasının üzvüyəm. Üzv olduğum 16 il ərzində partiya strukturunun müxtəlif vəzifələrində Müsavat və müsavatçılıq ideologiyası uğrunda layiqincə xidmət göstərdiyimi düşünürəm. Biz ailəlikcə müsavatçı olmuşuq. Hər zaman müsavatçılıq ideologiyasının ölkəmizdə qalib ideologiya olacağına, mövcud durumu dəyişərək demokratik cəmiyyət quracağına inanmışıq. Təəssüf ki, bu inancımız Müsavat Partiyasının son qurultayından sonra sarsılmağa başladı. Qurultaydan sonra partiyada aparılan siyasətin, müsavatçılıq ideologiyası ilə üst-üstə düşməmdiyi, partiyadaxili mühitin müsbətə doğru dəyişdirilməsi üçün lazımi istək və iradənin olmadığı qənaətinə gəldim. Enerjimi daxili çəkişmələrə və intriqalara sərf etməyin faydasız olduğunu düşünərək, partiya ilə yolumu ayırmaq qərarına gəldim. Həqiqi müsavatçılara gələcək mübarizələrdə uğurlar arzulayaraq, Müsavat Partiyasından istefa verdiyimi bəyan edirəm!" deyə, T.Abbaslı vurğulayıb.

Qeyd edək ki, T.Abbaslı istefa bəyanatını partiyaya mayın 6-da təqdim edəcək. Müsavatın Gənclər Təşkilatının sədri, həmçinin Divan üzvü Tural Abbaslı 2014-cü ildə partiyanın qurultayında başqanlığa namizəd də olmuşdu. Üç namizəddən biri olan T.Abbaslı seçilmədikdən sonra "AG blok" yaradıb. Bu ilin mayında "AG blok"un partiyaya çevrilməsi və qurultayın keçirilməsi nəzərdə tutulur. Qeyd edək ki, Müsavat Partiyasının qurultayda namizədliyini irəli sürən dörd namizəddən ikisi partiyadan qovulub.

❑ **Röya RƏFİYEVA**





# Xalq şairi Söhrab Tahir dəfn olundu

## Anar: "İtkimiz çox ağırdır"

**Mayın 5-də xalq şairi Söhrab Tahirlə vida mərasimi keçirilib. "Təzəpir" məscidində baş tutan mərasimdə mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, nazir müavini Vaqif Əliyev, Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar, xalq şairləri Fikrət Qoca, Nəriman Həsənzadə, mədəniyyət və incəsənət xadimləri, ziyalılar iştirak edib.**

**Xalq yazıçısı Anar** xalq üçün bu itkinin çox ağır olduğunu bildirib: "İtkimiz çox ağırdır. O taylı-bu taylı Azərbaycanın çox görkəmli şairi, xalq şairi Söhrab Tahiri itirdik. Söhrab Tahir həyatda çox əzablar çəkib. Çox məmnunam ki, bir müddət bundan öncə AYB-də onun 90 illik yubileyi keçirilərkən, özü iştirak etməsə də onunla telefon danışığımız oldu. Onun bir şeirində deyilirdi ki, "bölünməkdən elə qorxuram ki, çöpü də ikiyə bölmərəm". Amma özünün vətəni ikiyə bölündü, ömrünün sonuna yaxın əməliyyat olundu. Amma onun ruhu bölünməzdi".

**Mədəniyyət və turizm nazirinin müavini Vaqif Əliyev də xalq şairinin ölümünün Azərbaycan xalqı, ədəbiyyatı üçün böyük itki olduğunu deyib:** "Mən fəxr edirdim ki, belə bir insanı tanıyırdım. Təbii ki, bu gün onun şeirləri, fəaliyyəti yadımıza gəlir. O, Azərbaycanı, Bakıdan Təbrizədək, Təbrizdən Bakıyadək sevirdi. Tahir Söhrabın ölümü Azərbaycan xalqı, ədəbiyyatı, Azərbaycan Yazıçılar Birliyi üçün böyük itkidir. Allah ona rəhmət eləsin".

**Xalq şairi Nəriman Həsənzadə isə Söhrab Tahirin xalqın yaddaşında əbədi yaşayacağını deyib:** "Onu itirdik, bu bir taledir. Söhrab Tahir bizim həm yaşıdımız, həm də ağsaqqalımız idi. O, elə bir ədəbi irs qoyub ki, o irs əbədi yaşayır, yaşayacaq da. Həmişə öz söhbətləri ilə digərlərini yaşadırdı...Onun çox gözəl yumor hissi var idi. Adətən təbrizlilər çox yumorlu olur. Söhrab Tahir ən ağır şeyləri belə zarafata salıb deyərdi".

**Mərhum şairin oğlu Tahir isə atası ilə bağlı bəzi məqamlara aydınlıq gətirib:** "Oktyabr ayında atam ürək çatışmazlığı xəstəliyi ilə əlaqədar "Neftçilər" xəstəxanasına yerləşdirilmişdi. Doğrudur, onda atamı pis vəziyyətdən çıxartdılar. Lakin ayağında qanqrena yarandı. Ona görə də hər iki ayağı əməliyyatla amputasiya olunmalı idi. Lakin atam bu əməliyyatdan imtina etdi və yarımçıq qalan "Ata" eposunu tamamlamağa çalışdı. Biz birlikdə həmin eposu bitirdik. Hazırda əsəri işıq üzü görüb".

**Mərasimdən sonra mərhum şair II Fəxri Xiyabanda dəfn olunub.**

❑ **Xalidə GƏRAY**







# 9 mayda Moskvada terror planlaşdıran İŞİD-çilərdən biri Azərbaycandan gedib

**Rusiya xüsusi xidmət orqanlarının keçirdiyi əməliyyat nəticəsində mayın 9-da, Qələbə Günü Moskvada seriya terror aktları həyata keçirməyi planlaşdıran İŞİD üzvləri yaxalanıb.**

Virtualaz.org Rusiya mənbələrinə istinadən xəbər verir ki, əməliyyat mayın 4-də keçirilib, saxlanılanlardan çoxlu miqdarda silah-sursat, partlayıcılar götürülüb. Saxlanılanların sayı cəmi 12-dir.

Məlumata görə, İŞİD üzvlərindən ibarət qrup Moskvada Qələbə Günü mərasimlərinə qatılaraq kütlə arasında atəş açmalı, qarşılarına keçəni öldürməli idi. Onların hədəfində həmçinin "Ölməz polk" olub. Terror aktlarını Qırmızı Meydanda, Ümumittifaq Xalq Təsərrüfatı Sərgisində (VDNX) , Arbatda və digər yerlərdə həyata keçirmək nəzərdə tutulurdu.

Həbs edilənlərin adları hələ açıqlanmır. Ancaq onlardan birinin Azərbaycandan getdiyi bildirilir. Həmin şəxs ifadəsində bildirib ki, ailəsi Azərbaycanda qalıb, özü Rusiyaya qazanc dalınca gedib. Lakin normal iş tapa bilməyib və bu zaman sosial şəbəkələrdə İŞİD təbliğatını aparan şəxslə tanış olaraq bu terror qruplaşmasının sıralarına daxil olub. Həmin şəxsin bildirdiyinə görə, İŞİD ona terror aktlarını həyata keçirmək üçün əvvəlcədən nəzərdə tutulan pulun bir hissəsini verib. Azərbaycanlı həmin pulla borclarını ödəyib.

YENİ MÜSAVAT
N 98 (6419) 6 may 2016

# Davudoğlunun istefasının arxasındakı sirlər

## AKP başqanı son çıxışında partiyadaşlarından halallıq istədi və Ərdoğan haqda danışdı; hakim partiyanın qurultayının vaxtı məlum oldu; ölkənin ikinci şəxsi kim olacaq?

**Türkiyə gündəmi bu ölkənin baş naziri Əhməd Davudoğlunun gözlənilmədən AKP-dən və vəzifəsindən getmək qərarı ilə çalxalanır. Mayın 4-də axşam saatlarında Beştəpədəki prezident iqamətgahında Ərdoğan-Davudoğlu arasındakı 1 saat 40 dəqiqəlik görüşdən sonra iki siyasət adamının yolları ayrılıb. Belə ki, görüşdən sonra AKP-nin növbədənkənar qurultaya gedəcəyi dəqiqləşib. Bu isə Türkiyənin son yarım əsrdəki ən güclü siyasi diplomatlarından sayılan Davudoğlunun vəzifəsini itirməsi ilə nəticələnib.**

Artıq AKP-nin növbədənkənar qurultayının konkret zamanı da məlum olub. Mayın 5-də günorta saatlarında qurumun Mərkəzi İdarə Heyətinin toplantısında qurultayın mayın 22-də keçirilməsi barədə qərar qəbul edilib.

Əslində qalsa, Ərdoğan-Davudoğlu görüşünün getdiyi vaxtlarda hər kəs sonda baş nazirin istefa qərarının olacağını düşünürdü. Çünki bu görüş sıradan biri deyildi. Əvvəlki görüşlərdə əlində çanta və çamadanla hökumətə hesabat verməyə gələn baş nazirin bu dəfə əli boş idi...

AKP qurultayında başqanla bərabər baş nazirin də müəyyənləşəcəyi, eləcə də partiya rəhbərliyi ilə bərabər Ərdoğan hökumətinin daxilində də ciddi dəyişikliklərin olacağı gözlənilir.

Mayın 4-dən etibarən Türkiyə hökuməti daxilində gedən şok gəlişmələr, eləcə də daim bir-birilərinə olan sədaqətləri ilə seçilən Ərdoğan və Davudoğlu arasındakı fikir ayrılığı hər kəsin təəccübünə səbəb olub. Baş verənlərin nədən qaynaqlanması müəmmalı olaraq qalmaqdadır. Doğrudur, aprelin 29-da AKP-nin Mərkəzi İdarə Heyətinin toplantısından sonra prezident və baş nazir arasındakı soyuq münasibətləri sezməmək mümkün deyildi. Belə ki, toplantıda Ərdoğanın təlimatı ilə qəbul edildiyi deyilən qərarla bölgə liderlərini təyin etmə səlahiyyəti partiya sədrindən, yəni Davudoğlundan alınmışdı. Bu da baş nazirin partiya rəhbəri statusunun şübhə altına alınması demək idi. Türk mediasının yazdığına görə, bu qərardan sonra baş nazir Ərdoğandan bunun səbəbini soruşub. Prezident ona hələ də partiyanın lideri olduğunu xatırladıb.

Davudoğlu olayının yaşanması ilə bu məsələ ətrafında müxtəlif iddialar ortaya çıxıb. Bu iddiaların fonunda əsas tənqid hədəfinə prezident Ərdoğan tuş gəlir. Türk ekspertlərin fikirlərinə görə, Türkiyə rəhbəri ölkədə faktiki prezident idarə üsulunun bərqərar olması yolunda Davudoğlunu özünə rəqib görüb. Çünki Türkiyə dövlətində baş nazirin geniş səlahiyyətlərə sahib olduğu sirr deyil. Bunu da bir zamanlar bu postda çalışmış Ərdoğandan yaxşı bilən yoxdur. Bir faktı qeyd edək ki, qardaş ölkədə ilk dəfədir baş nazir hakimiyyətdən hərbi çevriliş və ya parlamentdə etimadsızlıq göstərilməsi nəticəsində deyil, hakim partiya daxilində yaranan ziddiyyətlər nəticəsində uzaqlaşdırılır. Davudoğlunun Ərdoğanla münasibətləri "güclü prezident-çalışqan baş nazir" formuluna əsaslanırdı. Lakin tamamilə aydın idi ki, Davudoğlunun Nazirlər Kabinetini idarə etməsi əslində formaldır, nazirlər Ərdoğan tərəfindən təyin edilir və onun göstərişləri ilə hərəkət edir. Davudoğlu Türkiyədə, o cümlədən hakim partiyada Ərdoğandan sonra ən nüfuzlu siyasi fiqur hesab olunurdu. Sabiq prezident Abdulla Gülün gedişindən sonra AKP-də önə çıxa biləcək Davudoğlundan sonra ikinci bir şəxs yox idi. Ekspertlər hesab edirlər ki, Ərdoğan son addımları ilə əslinə qalsa, bir vaxtlar qurduğu partiyanın nəzarətindən çıxdığını sezib və buna görə də AKP-ni öz nəzarətində saxlamaq üçün ən yaxın silahdaşının üstündən xətt çəkməyə məcbur olub. Türkiyənin yeni baş nazirinin də prezidentdən asılı olacağı, bir növ formal statusa malik olacağını da indidən proqnozlaşdırmaq çətin deyil.





### Davudoğlu halallıq istədi

**Mayın 5-də Davudoğlu lideri olduğu partiyanın növbədənkənar qurultayının çağırılması, eləcə də özünün siyasi karyerasına dair suallara cavab vermək üçün telekanalların kamerası önündə çıxış edib. Həyəcanlı görünən və danışdıqca səsi titrəyən Davudoğlu bunları deyib:** "Mənim 20 aylıq baş nazirlik sürəcində əsas vəzifəm AKP-nin birlik və bütövlüyünü qorumaq olub. Baş nazirliyim dönəmində AKP-də qardaş qovğası olmadı, bir istefa da baş vermədi!"

**O, seçkilərdən də danışaraq, "7 iyundakı növbədənkənar seçkilərdə başımızı dik tutduq", deyib:** "Zor bir dönəmdi, amma Türkiyəni bir saniyə də hökumətsiz buraxmadıq".

**Türkiyənin baş naziri daha sonra başçılıq etdiyi 64-cü hökumətin terrorla mücadiləsindən danışıb.** "Bizim aldığımız qərarlar nə olursa-olsun, kimsə Türkiyənin iqtisadiyyatı ilə oynamağa qalxmasın. Son ana qədər vəzifə başında olan hökumətimiz var, kimsə ekonomi dəngələri ilə oynamağa qalxmasın", deyə xəbərdarlıqda da bulunub: "Mən prezidentin tapşırığı ilə baş nazirliyi qəbul etdim, lakin bu məqamın haqqını vermək üçün də gecə-gündüz çalışdım... 81 vilayətimizə getdim - addımımı basmadığım vilayətimiz qalmadı... Bu, bir mühasibə yapma, baş nazirlik dönəminin qısa özətidir... "



Numan Kurtulmuş



Binəli Yıldırım



Bəkir Bozdağ

**Bundan sonra Davudoğlu 22 may qurultayında AKP rəhbərliyinə namizədliyini verməyəcəyini açıqlayıb və bunun səbəblərindən danışıb:** "Nizamnaməmizin gərəyi olaraq 22 mayda qurultay qərarı aldıq. Bu tarixdə fövqəladə qurultay keçirəcəyik. Xalq soruşa bilər, nədən seçkilərdə uduzan müxalif partiya başqanları kreslolarını mühafizə etdikləri halda, seçkilərdə təkbaşına iqtidar olan bir partiyanın rəhbəri istefa verir?"

**Daha sonra isə o, bununla bağlı qısa açıqlama verib. Məlum olub ki, AKP-nin son yönətim toplantısı və alınan qərarlar partiyanın rəhbəri və hökumətin başçısı olan Davudoğlunu razı salmayıb:** "Mütabakat (ortaq anlaşma) olmayan yerdə iddiaçı olmam. Kimsənin də qəlbini qırmam...Ona görə də qərara aldım ki, istefa verim..."

Məlum olur ki, partiya rəhbərliyi onun faktiki rəhbərliyindən xəbərsiz, böyük ehtimalla Ərdoğanın göstərişləri ilə, bir sıra qərarlar alıb, bu da Davudoğlunu incidib.

**Baş nazir öz çıxışında Türkiyənin prezidenti T. Ərdoğanı sayğılı ifadələrlə vəsf edib. O deyib ki, Ərdoğanla insani münasibətləri heç zaman pozmayacaq:** "Cümhurbaşqanımızla son nəfəsimə qədər dostluq və qardaşlığımı qoruyacam. Kimsə mənim ağzımdan, zehnimdən cümhurbaşqanımızla bağlı neqativ söz eşitməyəcək. Cümhurbaşqanının onuru mənim onurumdur, onun ailəsi mənim ailəmdir".

Açıqlamalardan belə məlum olur ki, Davudoğlu bundan sonra elmi fəaliyyəti ilə məşğul olacaq. Eyni zamanda, AKP millət vəkili kimi parlamentdə də təmsilçiliyini saxlayacaq. Daha sonra o, təşəkkür açıqlamaları ilə çıxış edib, halallıq istəyib.

Çıxışın sonunda anlaşılan bu olub ki, Davudoğlu 22 maya qədər - fövqəladə qurultayda yeni AKP lideri seçilən ana qədər baş nazir kimi fəaliyyətini davam etdirəcək.

### Davudoğlunu kim əvəzləyə bilər?

Türkiyənin baş nazirliyinə və AKP sədrliyinə iddiaçı olacaq 5 ismin adı hallanır. Bunların nəqliyyat naziri Binəli Yıldırım, energetika naziri və Ərdoğanın kürəkəni Berat Albayrak, ədliyyə naziri Bəkir Bozdağ, baş nazirin müavini və hökumət sözçüsü Numan Kurtulmuş, səhiyyə naziri Mehmet Müəzzinoğlu və xarici işlər naziri Mövlud Çavuşoğludur. Bu şəxslərin hər biri Ərdoğana birbaşa yaxın olan, Türkiyə hökuməti daxilində heç bir hədəfləri olmayan şəxslərdir. Bir sözlə, Ərdoğanın baş nazirlikdə görmək istədiyi şəxslər bu tipdə olmalıdır.

Davudoğlunun gedişinin Avropa Birliyinin Türkiyə üzərindən viza rejimini götürməsi ərəfəsinə təsadüf etməsi də bir sıra müəmmalara yol açıb. Baş nazirin vəzifəsindən uzaqlaşdırılması səbəblərindən biri kimi də onun Türkiyənin dünyəvi dövlət olması üçün çalışdığı göstərilir. Bu fikirlərdə müəyyən qədər həqiqətlər var. Belə ki, günlər öncə Türkiyə parlamentinin sədri İsmayıl Qəhrəmanın "Dünyəvilik konstitusiyada olmamalıdır" kimi fikirlərinin üzə çıxması və buna Ərdoğan hökumətinin susqunluğu bir çox mətləblərdən xəbər verir.

Onu da xatırlatmaq yerinə düşər ki, Davudoğlu Azərbaycanın özünə dost saydığı siyasətçilərdən hesab olunur. Onun ölkəmizə münasibəti də daim müsbət olub. Buna görə Davudoğlunun gedişi Azərbaycanda müzakirə olunmaqla yanaşı, təəssüf doğurub.

**Politoloq Elxan Şahinoğlu bildirdi ki, Türkiyə hökumətinin indiki vəziyyətdə daxilində baş verən ixtilaflar ciddi təhlükələr yarada bilər:** "Rusiya ilə münasibətlər düzəlməyib, Suriyada İŞİD-çilər Türkiyəni hədəfə alıblar, Türkiyə milyonlarla qaçqın qəbul edib. Əslinə, qalsa bu ixtilaflar proqnozlaşdırılmışdı. Çünki Ərdoğanın xarizması o qədər yüksəkdir ki, nə zamansa Davudoğlu ilə yolları kəsişəcəkdi. Ərdoğan son vaxtlar təyinatlara da ciddi müdaxilə edirdi. Narazılıqlar o zaman başladı ki, Davudoğlu parlament seçkiləri öncəsi siyahıya MİT başqanı Hakan Fidanın adını salmaq istədi. Ərdoğan buna etiraz etdi. Ərdoğan keçmiş prezidentlərdən fərqlənir. Bütün proseslərə müdaxilə edir, siyasi müxalifəti də sərt tənqid edir. Türkiyə artıq konstitusiya dəyişikliyinə gedir. Parlamentdə Ərdoğan istənilən səsi yığa bilməyəcək və referendum yolu ilə dəyişiklikləri edəcək. Bundan sonra baş nazirin səlahiyyətləri istər-istəməz azalacaq. Prezidentlik önə keçəcək. Davudoğlu müstəqil qərar verə bilmədiyinə görə, görünür, vəzifədən getmək yolunu seçdi. Bir fakt da var ki, Davudoğlu olduğu 3 illik nazirlik dönəmində daxili və xarici siyasətdə heç bir uğur qazanmadı. Əksinə, Rusiya və Suriya ilə münasibətlər soyuqlaşdı. Sonda akademik çalışmalara qayıtmaq yolunu seçdi. Ərdoğan xarizmatik lider olduğundan inandırmaq qabiliyyəti yüksəkdir. Amma Davudoğlunda bunlar yoxdur. Ərdoğan düşünə bilər ki, Davudoğlunun açıqlamaları partiyanın gələcək reytinqinə ciddi təsir edər".

**Politoloq Davudoğlunun gedişinin Azərbaycana təsirləri və onu əvəzləyə biləcək şəxslər barədə də danışdı:** "Türkiyədə kimlərin hakimiyyətə gəlməsinin önəmi yoxdur. Azərbaycanla strateji müttəfiqlikdən qopma olmayacaq. Bunun başqa yolu yoxdur. Bəzi fiqurların Davudoğlunu əvəz edəcəkləri barədə adları çəkilir. O fiqur baş nazir olmağa razılaşacaq ki, Ərdoğanın kölgəsində qalmağı qəbul edəcək. Yeni nazir başqa yol seçsə, Davudoğlunun aqibətini yaşayacaq. Numan Qurtulmuşun gəlişi AKP daxilində ixtilaflara yol aça bilər. Çünki o, yeni şəxsdir. Halbuki mən də onun Davudoğlundan zəif siyasətçi olduğunu düşünmürəm".

**E.Şahinoğlu Davudoğlunun gedişinə dünyəviliyin tərəfdarı olmasının da səbəb olduğunu istisna etmir:** "Davudoğlunun gedişinə parlament sədrinin dünyəvilik barədə məlum fikirləri də səbəb ola bilər. Ola bilsin ki, Davudoğlu bununla razılaşmayıb. Sadəcə, eyni partiyada olduğundan açıq dilə gətirmir. O, istefa verməklə əslində geniş manevr imkanları qazanıb. Onun AKP-də qalıb-qalmayacağını bilmirik. Amma bundan sonra hökumətin addımlarını rahat tənqid edə bilər. Onun partiya quracağını düşünmürəm. Yeni baş nazirin necə siyasət yürüdəcəyini də bilmirik. Əgər dünyəvilik barədə parlament sədri ilə razılaşsa, nəzarət altında olacaq. Parlament sədrinin fikirləri özbaşına deyil, AKP mətbəxində hazırlanıb. Sadəcə, onun dili ilə cəmiyyətə çatdırırlar".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 98 (6419) 6 may 2016

# 22 yaşlı tələbənin ölümü...

## Dostları ilə balıq tutmağa gedən gəncin valideynləri onun boğulmadığını, qətlə yetirildiyini iddia edir

**Avrasiya Universitetinin 3-cü kurs tələbəsi Kənan Muradovun aprelin 18-də cansız bədəni Lökbatan qəsəbəsindəki göldən çıxarılıb. Dostları ilə birgə gölə balıq tutmağa gedən Kənanın suda boğularaq ölməsinə dair irəli sürülən ilkin versiya ilə ailə üzvləri razılaşmır. Kənanın ailəsi onun ölümündən sonra hadisə yerində olan şəxslərin ziddiyyətli ifadələr verdiyini və meyitin üzərində zorakılıq izlərinin olduğunu deyir. Bunları əsas gətirən Muradovlar ailəsi övladlarının öldürüldüyünü düşünür.**

Muradovlar ailəsi Zəngilan rayonundan məcburi köçkündür və Lökbatan qəsəbəsində, 5-ci massiv, ev 48-də yaşayırlar. Kənan Məmmədovun ailə üzvləri "Yeni Müsavat" qəzetinin əməkdaşları ilə söhbətlərində hadisə günü və ondan sonra baş verənlərdən danışıblar.

Mərhumun atası Cəlal Muradov hadisə baş verən gün Kənanın evdən universitetə getmək adı ilə çıxdığını deyir. Anasına universitetə getdiyini deyən Kənan saat 10 radələrində evdən ayrılıb. Universitetdə "KVN" proqramına hazırlığın olduğunu deyən Kənan anasına ondan nigaran qalmamasını da tapşırıb. Sonuncu dəfə isə saat 18:15 radələrində anası ilə telefonla danışıb və evə bir az gec gələcəyini deyib.

Lakin sonradan Kənanın universitetə yox, dostları ilə Lökbatandakı gölə balıq tutmağa və yeyib-içməyə getdiyi məlum olub. Hadisə baş verən gün Kənanın yanında uşaqlıq dostu Mərifət Ağayev, onun əmisi oğlu Pərviz və Elnur adlı şəxs olub.

**Elnur adlı şəxsin qayığı olub və göldə balıq tutmaqla məşğul olurmuş. Cəlal Muradovun dediyinə görə, həmin şəxs haqda ətraflı məlumatı olan yoxdur:** "Bu adamın kim olduğu bilinmir. Haqqında müsbət fikir deyən yoxdur. 43-45 yaşlarındadır. Oğlumla onun tanışlığı, əlaqəsi haradandır, bilmirəm. Guya bu balıqçı olub və onları göldə balıq tutması üçün öz qayığı ilə gölün ortasına aparıb".

### Ailəni şübhələndirən məqamlar...

**Kənanın ölümü ilə bağlı bir neçə şübhəli məqam var. Bunlar şahidlərin ifadəsi və cəsədin üzərində zorakılıq izinin olmasıdır. Mərhumun atası hadisə baş verəndən bir neçə dəqiqə sonra oğlunun dostu olan Mərifətin kiçik qardaşının ona xəbər gətirdiyini deyir:** "Mərifətin qardaşı Mətləb işlədiyim mağazaya gəldi. Dedi ki, Kənan gölə düşüb, ona paltar lazımdır. Rəngi ağarmışdı, yaman qorxmuşdu. Bildim ki, nəsə olub. Qardaşımgilə zəng elədim ki, gölün yanına gəlsinlər. Gölə çatanda Mərifəti gördüm. Qorxudan əsirdi. Dedi ki, Kənan qayıqdan düşüb, boğulub".





Ailəni əsas şübhələndirən məqam Kənanın üzməyi çox yaxşı bacarmasıdır. Dayısı və əmiləri Kənanın dənizdə ən dərin yerlərdə üzməyi bacardığını və onun boğulması versiyası ilə razılaşmadıqlarını söyləyirlər.

Hadisə aprelin 16-da saat 18 radələrində baş verib. Kənanın cəsədi 2 gün sonra - ayın 18-də göldən xilasedicilər tərəfindən çıxarılıb. Kənanın cəsədi çıxarılarkən paltarları əynində olub, mobil telefonu isə cibində.

**Kənanın atası deyir ki, hadisə baş verən yerə gedəndə ilk gördüyü Mərifətdən hadisənin necə baş verdiyini soruşub. Mərifət Kənanın atasına qayığın suda yelləndiyini və bu zaman Kənanın gölə düşdüyünü deyib:** "Mərifətin əmisi oğlunu tanımırdım. O da orada olub. Qayıqçı və Pərviz fərqli ifadələr verib. Biri deyib ki, qayıq çevirilib, biri də deyib ki, Kənanla Pərviz suya düşüb. Pərvizi çıxara biliblər, amma Kənanı yox. Kənanı çıxarmağa ehtiyac yox idi. O özü üzməyi çox gözəl bacarırdı. Elnur ifadəsində Kənanı xilas edə biləcəyini deyib. Xilas edə bilmədiyi üçün isə vicdan əzabı çəkdiyini deyib".



Əsas şübhəli məqamlardan biri də Elnur adlı şəxsin hadisədən bir gün sonra qaçmasıdır. Onu daha sonra polis əməkdaşları taparaq polis bölməsinə gətiriblər və ifadəsini alıblar. Digər qaranlıq məqam Kənanın boğazında izlərin olmasıdır.

**Cəlal Muradov deyir ki, cəsədi çıxaran zaman onun boğazında qan izləri də olub:** "Kənanın boğazında şəkillərdən də aydın göründüyü kimi, izlər var. Boğazının yan tərəflərindən də qan çıxmışdı. Ekspertizanın cavabını gözləyirik. Kənan göldən düşdüyü yerdən çıxarıldı".

**Kənan hadisə baş verən gün ilk olaraq Elnur adlı şəxslə görüşüb. Daha sonra görüş yerinə digər şəxslər gəlib. Mərifət Kənanın uşaqlıq dostu olub. Elnurla görüşən Kənan daha sonra Mərifətə zəng edərək gölə gəlməsini istəyib:** "Mərifət bizim evə tez-tez gələrdi. Kənan da onların evinə gedərdi. Uşaqlıqdan bir yerdə böyüyüblər. Ancaq Mərifətin əmisi oğlunu tanımırdım. Sonradan öyrəndik ki, həmin Pərviz bir müddət əvvəl öz dostunu bıçaqlayıb. Lakin onu məhbəs həyatından xilas edə biliblər. Elə bu hadisədə ən şübhəli adamlar da Pərvizlə Elnurdur".

**Cəlal Muradov istintaqın gedişindən də narazılığını dilə gətirdi:** "Ekspertizanın cavablarının 15 günə məlum olacağı deyilsə də bu günədək heç bir nəticə yoxdur".

**C.Muradov işi araşdıran müstəntiqlə mayın 4-də danışdığını, lakin hələlik heç bir yeniliyin olmaması ilə bağlı cavab aldığını bildirdi:** "Deyirlər ki, gözləyin. Bu günə qədər bir nəticə yoxdur. Mərifətin atası Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Zeynal Ağayevdir. Hadisədən sonra onların ailə üzvlərindən heç kimi görməmişik. Onlar bizimlə qonşu sayılırlar. Eyni məhəllədə oluruq. Lakin buradakı evlərində yoxdurlar. Hadisədən sonra heç birini bu evlərində görən olmayıb".

**C.Muradov istintaqın qısa zaman ərzində şübhəli məqamları aydınlaşdırmasını istəyir. Hələ ki ekspertizanın rəyini gözləyən C.Muradov işin ədalətli araşdırılması üçün ölkə rəhbərliyinə də müraciət edəcəyini bildirdi.**

❑ İlkin MURADOV

# MTN-in həbs etdiyi dəstə üzvlərinin yaxınlarından Eldar Mahmudova ittihamlar

## "Həmin "statya"ları bizim uşaqların üstünə qorxutmaqla, "ananı, bacını bura gətirəcəyik" deməklə qoyublar"

**Mayın 5-də Ali Məhkəmədə hakim İnqilab Nəsirovun sədrliyi ilə 29 nəfərin barəsindəki hökmdən verdikləri kasasiya şikayətinə növbəti baxış təxirə salınıb. Buna səbəb təqsirləndirilən şəxslərdən biri olan Samir Sanıyevin barəsindəki hökmdən məhkəməyə kasasiya şikayəti daxil olmasıdır. Bu səbəbdən proses iyunun 9-na kimi təxirə salınıb.**

Ali Məhkəməyə kasasiya şikayəti təqdim edənlər "Eurovision-2012" mahnı yarışması ərəfəsində prezidentə sui-qəsdə cəhdə hazırlıqda, Milli Təhlükəsizlik Nazirliyinin (MTN) polkovnikini öldürməkdə və digər ağır cinayətlərdə ittiham olunaraq müxtəlif müddətlərə azadlıqdan məhrum edilən Azərbaycan vətəndaşlarıdır.

Keçirilən məhkəmə prosesində iştirak edən məhkum edilmiş şəxslərin yaxınları deyirlər ki, iş üzrə çıxarılmış məhkəmə hökmü ədalətsiz, əsassız və qeyri-qanunidir.

### "Terrorçunun böyüyü Eldar Mahmudovun özüdür"

**Hazırda həbsdə olan Nizami Səlimxanovun anası Xatın Səlimxanova deyir ki, övladı MTN tərəfindən qanunsuz saxlanılıb və sonradan həbsə məhkum edilib:** "Terrorçunun böyüyü Eldar Mahmudovdur. Bizim övladlarımızı 15 il, bəzilərini isə ömürlük həbsə məhkum etdirib. Oğlum ali təhsillidir, 4-5 dil bilir. Ondan terrorçu olar? Məhkəmələr o dövrdə MTN-də yazılan ittiham aktlarını təsdiq etməklə məşğul idi. Çünki məhkəmələr Eldar Mahmudova baxırdı, hakimlərin bir çoxu ondan qorxurdu. Biz valideynlər Ali Məhkəmənin hakimi İnqilab Nəsirovdan ədalətli qərar gözləyirik".



### "Məhkəmədə hakimlər deyirdilər ki..."

**Həbsdə olan Elmir Nurəliyevin anası Məhlüqə Nurəliyeva deyir ki, oğlunu 2012-ci il aprelin 5-də evə silahlı basqın edən 20-yə yaxın MTN əməkdaşı yatdığı yerdən aparıblar:** "Oğlumu döyərək apardılar. Mənim oğlumun heç bir cinayəti yoxdur, məhkəmədə də heç bir cinayəti sübut olunmayıb. Məhkəmədə hakimlər deyirdilər ki, sən ittihamda yazılanları fikirləşmisən. Məgər fikirləşmək cinayətdir? Belə çıxır ki, demokratik ölkədə fikirləşmək də olmaz... Bir ana kimi istəyərdim ki, cənab prezident MTN-in cinayətkar işçilərinin sonadək ifşa olunmasına nail olsun".

### "Onları sıraya düzüb bir-bir "tok"a veriblər"

**M.Nurəliyeva ittihamın absurd olduğunu diqqətə çatdırır:** ""Evrovison" keçirilməzdən 1 il əvvəldən 29 nəfəri tutub salmışdılar MTN-ə. Həmin "statya"ları bizim uşaqların üstünə qorxutmaqla, "ananı, bacını bura gətirəcəyik" deməklə qoyublar. Onları sıraya düzüb bir-bir "tok"a veriblər, işgəncələrə məruz qoyublar. Elələri var ki, qabırğalarını sındırıblar. Onlara saxta ifadələri belə imza etdiriblər. Oğlum işgəncələrdən sonra 4 ildir ki, xəstədir. O qədər vurub-döyüblər ki... 4 ildir ki, ona dərman daşıyıram, sağalmır..."

### "Onlara MTN-in binasında dəhşətli işgəncələr verilib"

**Məhbuslardan birinin həyat yoldaşı olan, adının çəkilməsini istəməyən hicablı qadın deyir ki, 2 körpə uşaqla Allahın ümidinə qalıblar:** "Onlara MTN-in binasında dəhşətli işgəncələr verilib. Hətta onları məhkəməyə elə gətirirdilər ki, sanki böyük bir terror aktı törədiblər. Başlarına qara torba keçirmişdilər. Halbuki tutulanlar bu ölkədə kiməsə xətər törətməyiblər. Hətta bir qarışqanı əzə bilməyən insan bu boyda dövlətə necə ziyan verə bilər ki? Körpə uşaqlar ortalıqda qalıb. Övladımın biri xəstədir. Mən onun dərmanlarını alıb çatdıra bilmirəm. Xahiş edirəm məhkəmədə ədalətli qərar verilsin".

### Vəkil deyir ki...

**Samir Sanıyevin vəkili Nəsimi İsayev deyib ki, MTN-də iş üzrə ilk gündən doğru-dürüst araşdırma aparılmayıb:** "Bu iş MTN-də istintaq olunan işlər sırasında ən qeyri-obyektiv işdir. İstintaq real faktlara deyil, kiminsə ehtimallarına əsaslanıb. İttiham aktında yazıblar ki, guya tutulanlar "mahnı yarışmasının keçiriləcəyi "Christal Hall"u partlatmaq istəyiblər. Sual olunur, 2011-ci ildə kim bilə bilərdi ki, Azərbaycan bu yarışmada qalib gələcək? İttiham aktında bu cür uyğunsuzluqlar var. İş tamamilə absurd bir işdir. Samir Sanıyevi və digər iki şəxsi ömürlük həbsə məhkum ediblər. Guya bu şəxslər hakimiyyəti zorla ələ keçirmək istəyiblər. Amma işdə bir ifadə belə yoxdur ki, kim və necə hakimiyyəti ələ keçirmək istəyib. Heç bir dəlil-sübut olmadan belə qondarma ittihamlar verib və məhkum ediblər. Yazırlar ki, guya sərhəddən çantalarla silah keçiriblər. Amma ortada heç bir fakt yoxdur. 29 nəfəri bu cür qondarma ittihamlarla həbs ediblər. İş Ali Məhkəmədədir. Ümid edirik ki, MTN-dəki məlum həbslərdən sonra, oradakı nazir Eldar Mahmudovun, Akif Çovdarovun rəhbərliyi qondarma işlər aparılması məlum olandan sonra nəhayət ki, bu qondarma işə bu dəfə məhkəmədə ədalətlə baxılacaq".

❑ E.MƏMMƏDƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 98 (6419) 6 may 2016

# Ermənistan separatçı qurumu tanıma məsələsini ertələdi - səbəb

## Bakını şantaj siyasətinin əsas hədəfi; düşmən ölkə prosedura başlasa da, qərar verməyə qorxur; Azərbaycanın xəbərdarlığının ardınca Kremldən də məsələyə reaksiya gəldi; ekspertlər bu addımın fiasko olacağına əmindir...

**Mayın 5-də Ermənistan hökuməti Azərbaycanın işğal altındakı ərazilərində mövcud olan separatçı rejim tərəfindən elan olunmuş qondarma “Dağlıq Qarabağ Respublikası”nın “müstəqilliyi”nin tanınması barədə qanun layihəsinə baxıb və müsbət rəy verib. Bununla da faktiki olaraq Azərbaycan ərazilərinin ilhaqını rəsmiləşdirən, beynəlxalq hüququ birmənalı şəkildə pozan qanun layihəsinin ölkə parlamentinin müzakirəsinə çıxarılmasına razılığı nı bildirib.**

Məlumata görə, mayın 10-da keçiriləcək parlament iclasında “Arsax Respublikasının tanınması” haqqında qanun layihəsinin müzakirəsi də gözlənir. “Əgər Ermənistan ”DQR"in müstəqilliyini tanısa, bu Xankəndi ilə Bakı arasında birbaşa danışıqlar imkanı yaradacaq". Belə bir absurd açıqlama ilə Ermənistanın Rusiyadakı səfirliyinin mətbuat katibi Levon Torqomyan çıxış edib. (Avropa.info).

İki gün əvvəl İrəvana “Qarabağın müstəqilliyini tanımayın” müraciətini edən separatçı rejim isə bu dəfə “val”ı dəyişib. Separatçıların “mətbuat katibi” David Babayan deyib ki, artıq Ermənistan Dağlıq Qarabağın müstəqilliyinin tanınması prosesinə başlayıb. Ancaq o “biz müstəqilliyin daha çox ölkə və subyektlər tərəfindən tanınması istiqamətində çalışacağıq” ,- deyə o iddia edib. Separatçı sərsəm fikirlərinin davamında əlavə edib ki, Qarabağın müstəqilliyinin tanınması danışıqlar prosesini canlandıracaq.

**Qeyd edək ki, bir gün əvvəl Rusiya XİN başçısı Sergey Lavrov Azərbaycanı narahat olmamağa çağırmışdı.** “Moskvada Ermənistan deputatlarının Qarabağın tanınmasıilə bağlı təklifləri ilə əlaqədar panika üçün əsas görmürlər” deyən Lavrov iddia etmişdi ki, bu erməni parlamentinin iki üzvünün təklifidir. “Ermənistan hökuməti onların qanunlarına əsasən, onların hamıya izah etdiyi kimi, bu qanun layihəsi ilə bağlı qiymətləndirmə verməlidir. Mən indi həyəcan siqnalı verməz və panikaya düşməzdim” - Rusiya XİN başçısı demişdi.

**Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov isə Dağlıq Qarabağ separatçı rejiminin “müstəqilliyi”nin tanınması haqqında qanun layihəsinin Moskva və Ermənistan arasında müzakirə olunması barədə fikirləri təkzib edib.** “Bu mövzu Moskva ilə müzakirə edilməyib. Biz bu kontekstdə qəbul olunan qərarları çox diqqətlə müşahidə edirik. Və sözsüz ki, münaqişə tərəflərini əvvəlki kimi kövrək barışığı poza biləcək və bütövlükdə Dağlıq Qarabağda gərginliyin artmasına gətirib çıxara biləcək hər hansı addımlardan çəkinməyə çağırırıq" - Kremlin sözçüsü bildirib. Eyni zamanda Peskov deyib ki, Moskva münaqişə tərəflərinin “ağıllı davranışlarına” ümid edir.

Məhz Rusiyadan gələn növbəti xəbərdarlığın ardınca Ermənistan XİN daha ehtiyatlı mövqedən çıxış etməyi zəruri sayıb. Bu dəfə xarici işlər nazirinin müavini Şavarş Köçəryan deyib ki, “əgər Azərbaycan razılaşmanı pozarsa, Ermənistan Dağlıq Qarabağın müstəqilliyini tanıyacaq”. Bununla belə, o, işğalçı ölkənin əsas niyyətini növbəti dəfə səsləndirərək iddia edib ki, guya Qarabağ danışıqlarında irəliləyiş Bakının Dağlıq Qarabağla “birbaşa danışıqlar apardığı zaman” əldə olunub. “İrəvan hər vədlə çalışır ki, Azərbaycan Qarabağ separatçılarının "tərəf" kimi danışıqlarda iştirakına razılıq versin, Bakı isə bu təklifi birmənalı şəkildə rədd edir" - Köçəryan bildirib.

Rəsmi Bakı isə qondarma “DQR”in tanınması halında baş verə biləcək hadisələrə görə Ermənistanın məsuliyyət daşıyacağını bəyan edib. Görünən budur ki, Ermənistan hökuməti savaş yoluna meyllidir. Parlamentin bu səhvi düzəltməyəcəyi halında müharibə qaçılmaz olacaq.

Ankarada fəaliyyət göstərən Qafqaz Strateji Araşdırmalar Mərkəzinin (KAFKASSAM) sədri, türkiyəli politoloq Hasan Oktay publika.az-a müsahibəsində “Ermənistan Qarabağı tanıma blefi ilə Azərbaycanı bir neçə gün narahat etməyi planlaşdırır” - deyib. Əlavə edib ki, İrəvan “DQR”in tanınması məsələsinin müzakirəsini uzadaraq, Azərbaycanın ərazilərini azad etmək addımlarını əngəlləməyə çalışacaq: “Bu, Azərbaycana qarşı şantaj addımıdır”.

**İrəvanın Dağlıq Qarabağın “müstəqilliyinin” tanınması yönündə atdığı addım rəsmi Bakının kəskin reaksiyasına səbəb olacaq və təmas xəttində vəziyyəti gərginləşdirəcək. Bu sözləri isə Rusiya Dövlət Dumasının MDB komitəsinin sədri Leonid Slutski deyib.** “Bu qanun layihəsinin qəbul edilməsi yerində olmayan addımdır, çünki Bakı üçün qıcıqdırıcı amil olacaq” - Slutski əlavə edib.

**Politoloq Ərəstun Oruclu da hesab edir ki, bu, Azərbaycana qarşı şantaj hərəkətidir:** “Aprelin əvvəllərindəki hərbi əməliyyatlardan sonra Ermənistanda faktiki olaraq böhran yaranmağa başlayıb və hakimiyyətin mövqeləri ciddi şəkildə zəifləyib. İndi bu vəziyyəti aradan qaldırmaq üçün müxtəlif üsullara əl atırlar. Bir ara hərbi hücumlar təşkil etməyə çalışdılar, mülki əhalimizi hədəfə aldılar. Lakin sərt cavab tədbirləri alandan sonra müxtəlif siyasi texribatlara əl atmağa başladılar. Məncə, bu, daxili auditoriyaya hesablanmış addımdır, başqa bir şey deyil. İnanmıram ki, Ermənistan bu addımı real olaraq ata bilər, çünki onun fəsadlarını anlayır”. Ə.Oruclu şübhə etmir ki, Rusiya da İrəvanın “DQR”in tanınmasını istəmir. İndiki situasiyada Azərbaycanın hansı mövqedən çıxış etməsinə gəldikdə, politoloq bildirdi ki, rəsmi Bakı maksimum səviyyədə özünü təmkinli aparıb təxribatlara uymamalıdır.



**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlunun sözlərinə görə, Ermənistan hakimiyyəti anlayır ki, əgər Dağlıq Qarabağın “müstəqilliyi” tanınarsa, bu, danışıqların dayandırılması demək olacaq:** “Rəsmi Bakı Dağlıq Qarabağın "müstəqilliyini" tanıyan İrəvanla danışıqlar aparmayacaq. Bu isə müharibəyə aparan yoldur. İrəvan Dağlıq Qarabağın “müstəqilliyini” tanıyarsa, beynəlxalq aləm, o cümlədən Rusiyanın da dəstəyini itirəcək. Əksinə, böyük dövlətlər İrəvanın bu siyasətini tənqid edəcəklər. Azərbaycan BMT-də məsələ ilə bağlı səsvermə tələb edəcək və bütün dövlətlər yenidən Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə səs verəcəklər ki, bu da Ermənistanın mövqeyinin zəifləməsinə yol açacaq. Ermənistanda bəziləri düşünür ki, İrəvan Dağlıq Qarabağın “müstəqilliyini” tanıyarsa, başqa dövlətlər, o cümlədən Rusiya da bu prosesə qoşula bilər".

**Politoloq xatırlatdı ki, ermənilər nümunə kimi də Kosovo, Abxaziya və Cənubi Osetiya göstərir:** “Yəni əgər Rusiya Abxaziya və Cənubi Osetiyanın "müstəqilliklərini" tanıyıbsa, Dağlıq Qarabağın da “müstəqilliyini” tanıya bilər. Birincisi, Rusiya Gürcüstanla müharibə apardığına görə Abxaziya və Cənubi Osetiyanın “müstəqilliklərini” tanıdı, Moskvanın Azərbaycanla münasibətləri isə strateji tərəfdaş xarakteri daşıyır. İkincisi, Moskva vaxtilə Kosovonun müstəqilliyi əleyhinə çıxaraq bu bölgəni Serbiyanın ərazisi adlandırıb. Moskva Kosovo məsələsində bir cür, Dağlıq Qarabağ məsələsində fərqli siyasət ortaya qoya bilməz. Dağlıq Qarabağın “müstəqilliyini” yalnız özü kimi separatçı bölgələr, o cümlədən Abxaziya və Cənubi Osetiya tanıya bilər. Ancaq bu heç bir əhəmiyyət kəsb etməyəcək. Abxaziya və Cənubi Osetiyanın “müstəqilliklərini” Nikaraqua və Vanuatu adlı çoxlarının adını birinci dəfə eşitdiyi kiçik ada dövləti tanımışdı. Bu da Rusiyanın xahişi ilə baş tutmuşdu. Rusiya bundan artıq nəticəyə nail ola bilmədi. Əgər Abxaziya və Cənubi Osetiyanın “tanınması” məsələsində Rusiya uğur qazanmadısa, Ermənistanın Dağlıq Qarabağın “müstəqilliyini” beynəlxalq aləmə tanıtdırması, ümumiyyətlə, mümkün deyil. Ermənistan hakimiyyətinin bu siyasəti ona müsbət divident deyil, problemlər qazandıracaq. Ermənistan hakimiyyətinin Dağlıq Qarabağın “müstəqilliyini” tanıması Azərbaycan ordusunun hücuma keçmək üçün şərait yaradacaq".

“Hesab edirəm ki, Ermənistan növbəti çox ciddi səhvə yol verir və bu prosesi nə qədər tez dayandırsalar, o qədər yaxşıdır. Çünki qondarma DQR-in tanınması danışıqlar prosesinə ölümcül zərbə deməkdir. Təbii ki, belə addımlardan sonra danışıqlar prosesi bütün əhəmiyyətini itirir”. Virtualaz.org xəbər verir ki, bunu Ermənistan parlamentinin və hökumətinin “DQR”in tanınması istiqamətində son addımlarını dəyərləndirən azərbaycanlı siyasətçi İsa Qəmbər “Qovorit Moskva” (“Danışır Moskva”) radio stansiyasına müsahibəsində bildirib. Lakin siyasətçi ümid etdiyini bildirib ki, Ermənistan geri çəkiləcək və qanun layihəsini qəbul etməyəcək. O, bunu sadəcə olaraq Azərbaycana təzyiq cəhdi kimi qiymətləndirib.

Bu arada Azərbaycanın Müdafiə Nazirliyinin yaydığı məlumatlar onsuz da vahimə içində olan düşmən ölkədə növbəti dəfə təşvişə səbəb olub. Ordu rəhbərliyinin Silahlı Qüvvələrə könüllü qəbulu ilə bağlı elanı, o cümlədən uzunmüddətli döyüş əməliyyatları aparmaq üçün əlavə toxunulmaz ehtiyatların yaradılması istiqamətində tədbirlər görməsi barədə məlumatlarına düşmən ölkənin mətbuatı geniş yer ayırıb. Aşkar görünür ki, aprelin sonlarında Qarabağ cəbhəsində növbəti zərbələr alan düşmən ordumuzun növbəti həmlələrindən ehtiyatlandığı üçün müxtəlif vasitələrə əl atır.

**“Ermənistan bir dövlət olaraq məhv ola bilər”. Bunu isə axar.az-a hərbi ekspert Üzeyir Cəfərov deyib. Onun sözlərinə görə, İrəvan heç vaxt qondarma rejimi müstəqil subyekt kimi tanımağa risk edə bilməz.** “Bu, sadəcə, oyundur. Bu oyunun da başında Azərbaycana hədə gəlmək istəyi dayanır. Bu da heç bir effekt verməyəcək”. Ü.Cəfərovun fikrincə, əks təqdirdə, Azərbaycanın cavabı çox sərt və amansız olacaq.

O da istisna deyil ki, Ermənistan parlamenti tanınma məsələsini 10 maya saxlamaqla özünü təhlükədən sığortalamaq istəyib. Bundan əvvəl Şuşanın işğal günü - 8 mayda Azərbaycan ordusunun genişmiqyaslı hərbi əməliyyatlara başlayacağı barədə xəbərlər yaymışdı və erməni rəsmilər ordumuzun təmas xəttinə əlavə qüvvələr cəlb etməsindən narahat olduqlarını gizlətməmişdilər. Hələ ki düşmən ölkə 8 maydan sağ-salamat çıxmağı, daha sonra isə Qarabağın tanınması ətrafında oyunlarını davam etdirməyi düşünür.

***

Belə bir situasiyada ABŞ-da keçirilən separat görüş də diqqətdən qaçmır. Məlumata görə, Ermənistanın “Daşnaksütyun” partiyasının nümayəndələri ötən gün ABŞ-da “Ay Data” ofisində ATƏT-inin Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorliklə görüşüblər. Görüşdə “Daşnaksütyun” partiyasının şərq və qərb komitələrinin sədrləri Ayk Oşakyan və Taron Ter-Xaçatryan, ABŞ-da “Ay Data” komissiyasının sədri Raffi Ambaryan və hökumətlə əlaqələr üzrə bölmənin direktoru Keyt Naapetyan iştirak edib. Görüşün əsas mövzusu isə Dağlıq Qarabağ vəziyyətlə əlaqədar olub. Hələlik nə erməni tərəf, nə də amerikalı diplomat görüşün detallarına aydınlıq gətirməyib. Hər halda, Qarabağ tənzimlənməsinə cavabdeh olan həmsədrin ermənilərin separatçı rejimi tanımaq cəhdinə hansı reaksiya verəcəyi də maraqlıdır. Lakin hələlik Minsk Qrupu sükut içindədir.

Sonda əlavə edək ki, BBC radiosu Ermənistandakı mənbəyə istinadən parlamentin gündəliyinə hələ ki, tanınma məsələnin daxil edilmədiyini bildirib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 98 (6419) 6 may 2016

# İlqar Məmmədovun deputatlığa namizəd olmasına MSK-dan "stop"

## Natiq Cəfərli: "Seçki Məcəlləsinin hərfi mənasında MSK haqlıdır, amma..."

**"İlqar Məmmədov Milli Məclisə seçilmək hüququnu itirib". Bunu mayın 5-də APA-ya açıqlamasında Mərkəzi Seçki Komissiyasının (MSK) mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Şahin Əsədli bildirib. Hazırda həbsdə olan REAL Hərəkatının sədri İlqar Məmmədovun 90 saylı Ağdaş seçki dairəsindən namizədliyini irəli sürməsi barədə danışan Ş. Əsədli deyib ki, Azərbaycan vətəndaşlarının qanunvericilikdə nəzərdə tutulan aktiv və passiv seçki hüquqları var:**


İlqar Məmmədov

"Aprelin 25-də İlqar Məmmədovun namizədliyinin irəli sürülməsi ilə bağlı sənədlər 90 saylı Ağdaş Dairə Seçki Komissiyasına təqdim edilib. DSK operativ qaydada bu sənədlərə baxıb, digər seçki subyektləri kimi ona da müvafiq kömək göstərilib".

Aprelin 28-də İlqar Məmmədovun deputatlığa namizədliyinin irəli sürülməsinin təsdiq olunduğunu deyən Ş. Əsədli onun nümayəndələrinə imza vərəqələri, müvafiq seçki sənədləri təqdim edildiyini bildirib: "Buna qədər İlqar Məmmədovun passiv seçki hüququ olub. Aprelin 29-da Şəki Apelyasiya Məhkəməsində İlqar Məmmədov barəsində hökm qüvvəyə minib. Seçki Məcəlləsinin 13.3.1-ci maddəsinin tələbinə əsasən İlqar Məmmədov bununla da passiv seçki hüququnu itirib, ona görə də o seçkidə namizəd kimi iştirak edə bilməz".

**MSK-nın ortaya qoyduğu mövqeyə İlqar Məmmədovun səlahiyyətli nümayəndəsi, REAL-ın icra katibi Natiq Cəfərli münasibət bildirib. "Yeni Müsavat"a açıqlamasında Natiq Cəfərli qeyd etdi ki, mayın 5-də günün birinci yarısı səlahiyyətli nümayəndə olaraq şəxsən ona 90 saylı Ağdaş Dairə Seçki Komissiyasından zəng edib İlqar Məmmədov üçün verilmiş imza vərəqələrini geri istəyiblər:** "Zəng edib dedilər ki, İlqar Məmmədovla bağlı Şəki Apelyasiya Məhkəməsinin qüvvəyə minmiş qərarı var, bu qərara görə İlqar Məmmədovun üzərində məhkumluq qalır və belə vəziyyətdə Seçki Məcəlləsi onun namizəd olmasını qadağan edir. İmza vərəqələrini geri istəməklə yanaşı, İlqar bəyin ilkin qeydiyyatının ləğvi haqqında qərar olacağını söylədilər. Biz də onlardan tələb etdik ki, bütün bunları bizə şifahi yox, rəsmi yazılı şəkildə, qərar şəklində təqdim etsinlər və biz bundan sonra seçki kampaniyasını dayandıraq. Bizə imza vərəqələrini mayın 3-də veriblər və biz artıq imza toplamağa başlamışdıq. Bir-iki günə imzaları tam olaraq toplayıb bitirməyi düşünürdük.

Seçki Məcəlləsinin hərfi mənasında Mərkəzi Seçki Komissiyası haqlıdır. Amma nəzərə almaq lazımdır ki, İlqar Məmmədov Avropa İnsan Haqları Məhkəməsində bəraət almış şəxsdir. İlqar Məmmədovun həbsinin qeyri-qanuni olduğu, siyasi motivli olduğu Avropa Məhkəməsi tərəfindən təsbit olunub. İlqar Məmmədov postsovet məkanında 18-ci maddə ilə Avropa İnsan Haqları Məhkəməsində işinə baxılan ikinci şəxsdir. Avropa İnsan Haqları Məhkəməsinin verdiyi qərar nöqteyi-nəzərdən də İlqar bəy təqsirsizdir və siyasi motivlərlə həbsdə saxlanılır".

**N.Cəfərli bəyan etdi ki, Avropa İnsan Haqları Məhkəməsinin qərarına əsaslanaraq İlqar Məmmədovun seçkidə namizəd kimi iştirak etmək hüququnun pozulduğu ilə bağlı Avropa İnsan Haqları Məhkəməsinə müraciət edəcəklər:** "İlqar Məmmədovla bağlı bizə MSK-dan və ya DSK-dan rəsmi sənəd, qərarın surəti verildikdən sonra məsələ ilə bağlı Azərbaycandakı bütün məhkəmə instansiyalarına müraciət ediləcək. Azərbaycandakı heç bir məhkəmə instansiyasından heç bir ədalətli qərar olmasa, bu məsələni də Avropa İnsan Haqları Məhkəməsinə çıxarmaq üçün addımlar atılacaq".

❑ **Etibar SEYİDAĞA**

# Mehriban Vəzir Milli Şuradan çıxarılmasından danışdı - 400 min manat skandalı

## Yazıçı - publisist: "İzahat istədiyimə görə də məni üzvlükdən çıxarıblar"

**Milli Şuranın mayın 5-də keçirilən Koordinasiya Mərkəzinin iclasında yazıçı-publisist Mehriban Vəzir şura üzvlüyündən çıxarılıb. Yayılan məlumata görə, M. Vəzirin Milli Şuradan kənarlaşdırılmasının səbəbi onun şuranın "Əsasnaməsinə və fəaliyyət prinsiplərinə zidd hərəkətlərə yol verməsidir".**


Mehriban Vəzir

Yayılan məlumatla bağlı **Mehriban Vəzirin** özü ilə əlaqə saxladıq. M. Vəzir açıqlamasında qərarın hansı səbəbdən verildiyini aşağıdakı kimi izah etdi: "Məsələnin kiçik tarixçəsi ondan ibarətdir ki, aprelin 30-da Mədən Sənayesində Şəffaflığın Artırılması (MSŞA) Koalisiyasının ümumi yığıncağı olub. Bu yığıncaqda şuraya və monitorinq qrupuna yeni seçki keçirildi. Namizədlərin sayı 30 nəfərdən çox idi. Eyni zamanda burada iştirakçıların da sayı 140 nəfərdən yuxarı oldu. Yəni çox möhtəşəm tədbir keçirildi. Şuraya seçkinin nəticələri isə əlbəttə, çox təəccüb doğurur-du. Çünki sahə üzrə çox məşhur mütəxəssislər bir yana qaldı, onlar 20 səs topladılar. Lakin ilk dəfə bu prosesə qatılan adamlar 100-ə yaxın səs aldılar. Bu bir qədər təəccüblü idi. Ancaq heç bir prosedur pozuntusu da yox idi. Seçkilərin nəticəsi demokratik qaydalara uyğun idi. Buna görə nəticə bizi düşündürürdü. Buna baxmayaraq, heç bir etiraz etmədən, nəticələri tanıdıq. Bildiyiniz kimi, Milli Şuranın Koordinasiya Mərkəzinin üzvüyəm və bu şəbəkədə də varam. Səhəri gün isə öz elektron poçtumda bəhs etdiyimiz şəbəkə üzrə Oqtay Gülalıyevin Milli Şura rəhbərliyinə verdiyi bir raportu oxudum. Raportda deyilirdi ki, hökumətin 400 min manat vəsait xərclədiyi prosesi darmadağın etdik və onların Milli Şuranı QHT edib nəzarət altına almaqlarına icazə vermədik. Eyni zamanda bildirilirdi ki, artıq şuranın əlli plyus biri (50 +1) bizim adamlardır. Bu qələbəyə, dəstək verənlərə təşəkkür edirəm və sairə. Yəni bu məktub, Milli Şuranın daxili işlərinə, Oqtay Gülalıyevin şəxsi həyatına aid deyildi. Bu, yalnız bizə- koalisiyaya aid idi. Eyni zamanda koalisiyanın üzvləri və namizədləri kimi mənə də aid idi".

**M. Vəzir bildirib ki, bu məktubu götürərək, koalisiya şəbəkəsində çıxış edib:** "Keçmiş koordinator Əlimmmməd Nuriyevdən izahat istədim ki, 400 min manatı hökumət kimə verib? Şuraya hakim olmuş "50+1" kimlərdir? 150 nəfərin təmsil olunduğu koalisiya şəbəkəsində poçtuma gəlmiş məktubu yönləndirərək, açıq şəkildə bu suallarıma cavab istədim. Eyni zamanda bir sual da qoydum ki, şura bu şəkildə hansı rolu oynayıb? Bununla da vəziyyət qarışdı. Eyni zamanda yeni seçilən şuranın və monitorinq qrupunun legitimliyi artıq şübhə altındadır. Nəticə də bəllidir ki, Milli Şura məni üzvlükdən çıxardı. Ancaq gərək heç olmasa, məndən də izahat istəyərdilər. Çünki əslində Oqtay Gülalıyev bu cür yalan raportla Milli Şuranın rəhbərliyini aldatmışdı. Burada tam bir böhtan var. Milli Şura çox təəssüf ki, bu yalanlarla bağlı izahat istəməkdənsə belə bir qərar çıxardı. Qərarlarını da anlayışla qarşılayıram. 400 min məsələsini koalisiyanın adına yazıblar və mən də Əliməmməd müəllimdən bunun izahatını istəmişəm. İzahat istədiyimə görə də məni üzvlükdən çıxarıblar".

❑ **Əli RAİS**

# Hünkar



**Xalid KAZIMLI**

**Bir siyasi qüvvə və ya siyasi personanın hakimiyyətə ilk gəldiyi günlərdə bəyan etdiyi açıqlama və mesajlara ciddi şəkildə diqqət vermək gərəkdir. O açıqlamalarda bir yol xəritəsi olur, mətn altında siyasi qüvvənin varmaq istədiyi mənzilə dair eyhamlar gizlənir.**

Bəlkə də bunu çoxları, yəni elektorat duymur, bilmir, amma tükü tükdən seçən siyasətşünaslar dərhal həmin siyasi personanın və ya qüvvənin əsl məram və məqsədini, plan və niyyətlərini aşağı-yuxarı təxmin edə bilirlər.

2002-ci ilin payızında Türkiyədə Ədalət və İnkişaf Partiyası hakimiyyətə gələndə, seçki birincisi olmuş partiyanın siyahısındakı ilk adam *(Abdulla Gül)* baş nazir olanda və ilk çıxışı yayılanda azərbaycanlı politoloqlar belə bir proqnoz vermişdilər: "Çox keçməyəcək, Gül partiyanı da, baş nazirliyi də əsl sahibinə - Rəcəb Tayyib Ərdoğana verəcək".

O zaman Ərdoğan yasaqlı idi, seçkilərə qatılması qadağan olunmuşdu, amma hamı bilirdi ki, AKP-nin əsas qurucusu və lideri odur.

Çox keçmədi, Ərdoğana tətbiq olunan yasaq aradan qaldırıldı və o, bir neçə aydan sonra Siirt bölgəsindən deputat seçilərək TBMM-ə girdi. Abdulla Gül hökumət başçısı vəzifəsini Ərdoğana ötürdü və beləcə də dedi: "Bu postu öz sahibinə vermək gərəkirdi".

Ərdoğanın ilk çıxışları həm yaddaşlarda, həm də videoarxivlərdə qalır. O, hər gün iqtisadi inkişafdan, demokratiyadan danışırdı. Ancaq bir müddətdən sonra istər bu qədər danışmağın özlüyündə avtoritarizmə xas cəhət olduğu bariz şəkildə ortaya çıxdı.

Gerçəkdən də sonrakı seçkilərdə Ərdoğanın partiyası sırf onun şəxsi xarizmasının, insanları təsir altına alan bəlağətli danışığının gücünə yenidən bütün seçkilərin birincisi oldu. Ərdoğan danışdıqca gücləndi, gücləndikcə daha çox danışmağa başladı, get-gedə öz mənini silahdaşlarının fövqünə qoydu və avtoritarlaşdı.

Əhməd Nejdət Sezərdən sonra Abdulla Gül Türkiyə prezidenti seçilərkən zarafatla deyilmiş bir fikir vardı, amma tam həqiqəti əks etdirirdi. Deyirdilər, Gül baş nazir Ərdoğanın yanında prezident postuna işə düzəlib.

Bu fikrin həqiqət olduğu Gül vəzifəsini tərk etdiyi zaman tam təsdiqləndi. Gül siyasətdən bu cür çəkilmək istəmirdi. Ərdoğan faktiki olaraq onu işdən çıxartdı, siyasətdən çəkilməyə vadar etdi. O isə heç bir müqavimət göstərə bilmədi.

Ərdoğan baş nazir olanda da dövlətin birinci adamıydı, indi prezidentdir, yenə birinci adamdır. Hətta o, bu gün prezident vəzifəsindən istefa verərək, sadəcə, AKP sədri olaraq qalsa da, dövlətin şəriksiz rəhbəri olacaq. Artıq o, ali dini lider halına gəlib.

Hələ yeddi-səkkiz il öncədən Türkiyədə belə bir durum yaranacağı proqnozlaşdırılırdı. "Ergenekon" və "Balyoz" işləri ilə bağlı Türkiyə ordusunun generaliteti dövlət idarəetməsindəki həlledici söz hüququndan məhrum ediləndə, hakimiyyət qolları hakim partiyanın və ona yaxın qüvvələrin üzvləri tərəfindən nəzarətə götürüləndə bilinirdi ki, çox keçməyəcək, sıra Ərdoğanın öz adamlarına da çatacaq.

Avtoritarizmin dəyişməz qanunlarından biri də budur: bütün rəqiblər zərərsizləşdiriləndən sonra xarizmatik lider öz silahdaşlarını verləməyə başlayır.

Baxaq, görək bu gün AKP-nın əsas qurucularından Ərdoğanın yanında kimlər qalıb. Əbdüllətif Şener çoxdan saraydışı edilib. Abdulla Gül də kənara qoyulub. Bülənt Arınç gözdən də düşüb, vəzifəsindən də alınıb. İndi də Əhmet Davudoğlu, türkün sözü, azl edildi. Hələ bunlardan başqa, AKP-nin onlarla qurucu üzvü də artıq iqtidar komandasından qovulublar. Sadəcə, onlar o qədər də populyar sima olmadıqlarından gözə çarpmırlar.

Son iki-üç ildə isə Ərdoğanın özünü Osmanlı sultanları kimi aparmağa başladığı qeyd olunurdu. Bu proqnoz da yavaş-yavaş doğrulur. O, artıq əlinin üstündə əl olmayan Hünkardır.

Bəlkə də AKP sədri postuna namizədlərdən biri kimi Ərdoğanın kürəkəni Berat Albayrakın adının çəkilməsi bu üzdəndir. Axı Osmanlı dönəmində məhz damadlar (kürəkənlər) vəziri-azam (baş vəzir) təyin edilirdilər. Əgər o təyinat gerçəkdən də baş tutsa, onda Ərdoğana "sultan Tayyib han hazretləri" demək lazım gələcək.



# 24 min dustaq

Zamin HACI
zaminhaci@gmail.com

"Altmış min ördəyim, altmış min qazım,
Altmış min incəbel quzum olaydı"
**(xalq mahnısı)**

**MTN generalı Çovdarovun Metro Tağını soyması əhvalatı o qədər koloritli, maraqlıdır ki, yazdıqca bitmir. Misal üçün, mən iki gün qabaq Tağının diplomat oğlunun 3 milyonu Çovdarova gətirməsini təsvir elədim, ancaq çox önəmli bir detalı yazmağa yer olmadı. Söhbət ondadır ki, pul... Bakıdakı Fəxri Xiyabanın düz qapısı ağzında alınıbmış!**

Prinsipcə, ora MTN-lə üzbəüz yerdir və Çovdarovun çox uzağa getmək istəmədiyini, özünə əziyyət vermək fikrində olmadığını deyə bilərik. Ancaq Fəxri Xiyabanda uyuyanları yada salsaq, bu əməliyyatın həm də bir simvolik hadisə olması şübhəsizdir. Başqa yöndən, milli mentalitetimizə, adət-ənənələrimizə uyğun yer seçilmişdir. Qədimdə də quldurlar kimisə soymaq istəyəndə onu qəbiristanlığa aparırdılar. Bu, Haqverdiyevin əsərləri əsasında çəkilən "Papaq" bədii filmimizdə də öz əksini tapmışdır. Orda papaqçı Şamili satan "dostları" Hacı Kamyabın qızının yerini demək üçün vəd olunan 5 min manatı almaq istərkən pulu məhz qəbiristanlıqda bir qəbirin yanındakı daşın altına qoymağı tələb edirdilər.

Elə türmələrin rəisi, el dilimizdə desək, zindanbaşı Hüseyn Əlixanov yoldaşın təzəlikcə dustaqlarımızın keyfiyyət göstəriciləri haqda söylədiyi informasiyalar milli dəyərlərimizə tam uyğundur. Deyir dələduzluq, quldurluq, tamahkarlıq, soyğunçuluq, oğurluq cinayətlərinin sayı artmışdır. Bunu devalvasiyanın, işsizliyin nəticəsi kimi də görmək olardı, ancaq mənim yadımda gəlir, hələ 10 il qabaq "Vaşinqton post" qəzeti Azərbaycandakı hakimiyyət quruluşunu "kleptokratiya" adlandırmışdı. Kleptomaniya - oğurluğa meylliliyin elmi adıdır. Özü də bu psixiatrik xəstəliyə tutulanlar çox vaxt oğurluğu hər hansı məqsəd güdmədən edirlər, xeyri ol-du-olmadı, əllərinə nə keçsə oğurlayırlar. Üstəlik, bunu şüursuz şəkildə edirlər! Yəni, adam girir dükana, nəsə oğurlayır, gətirir evə qoyur, yalnız bir həftə sonra kimsə gəlib "Mamed, qağa, bu şeyi hardan almısan?" soruşana qədər heç ağlına da gətirmir ki, belə bir zad çırpışdırmışdır. Gözəl, faydalı xəstəlikdir, uca millətimizə də yoluxmağı arzu edirəm. Bu xəstəliyə tutulmaq üçün İqtisadi İnkişaf Nazirliyində, İstehlakçıların hüquqları departamentində və ASAN-xidmət mərkəzlərində özəl, pulsuz kurslar açılmışdır, müraciət edin, kleptomaniyanın incəliklərinə yiyələnin, kef çəkin. Yaxşı oğurluq etsəniz sizi icra hakimi, rəis, prokuror, deputat da qoyarlar.

Oğurluq demişkən, təzəlikcə ən gülməli quldurlar haqda bir yazı oxumuşdum, onlardan biri haqda məlumatı oxucularla bölüşmək istərdim. 2012-ci ildə ABŞ-ın Əfqanıstandakı əsgərlərinə bir nəfər yaxınlaşıb, divardakı "Onlar axtarışdadır" lövhəsindəki öz şəklini göstərib və mükafat kimi vəd edilən 100 dolları tələb edib. Məhəmməd Əhsən adlı, Taliban komandirlərindən olan o şəxsə "əhsən" mükafatı verilmişdir - tutub içəri salıblar və bir neçə amerikalı əsgər isə bu idiot duruma qarnı cırılana qədər gülmüşdür. (Hər halda, rəqib itki veribdir).

Ümumən dustaqlarımızın sayında da artım vardır, keçən həftə bu haqda cəmiyyətə mesaj verildi, deyildi ki, hazırda Azərbaycanda 24 min dustaq var, onların bir nəfərinə dövlət büdcəsindən gündəlik 10 manat xərc gedir, ildə 80 milyon manat eləyir, xərci çoxdur və sairə. *(124 minə çatdırsaq müqəddəs rəqəm alınardı).* Əcəb işdir. Camaatı şərləyib zindana doldururlar, sonra xərcinin çox olduğuna deyinirlər. Bəlkə özünümaliyyələşdirməyə keçək? Özümüzə türmə tikək, özümüzü tutaq, hökumətə də əziyyət olmasın? Yoxsa belə çıxır bu millətin azadlığı hökumətə nə qədər problemdirsə, dustaqlığı da o qədər problemdir. Sürgün eləmək, ölkədən qovmaq lazımdır hamısını, o zaman xərci az olar.

**Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Arsrun Ovannisyan mövcud kredit razılaşması əsasında Rusiyadan Ermənistana silah göndərilməsi prosesinin başlandığını açıqlayıb.**



# Rusiyanın həm sülh, həm silah siyasətinin pərdəarxası

## Qabil Hüseynli: "Qarabağ məsələsində Kremlə ümid etmək özünü aldatmaqdan başqa bir şey deyil"

ATƏT-in Minsk Qrupunun həmsədri olan və aprelin əvvəlindəki 4 günlük hərbi əməliyyatlardan sonra Qarabağ münaqişəsinin həllində sülhyaratma missiyasını öz üzərinə götürdüyünü bəyan edən bir ölkənin işğalçı tərəfi silahlandırması ortaya suallar çıxarır.

Rusiyanın həm sülh, həm silah siyasətinin anlamı nədir? Belə bir siyasəti ortaya qoyan münsifdən münaqişənin ədalətli həllini gözləməyə dəyərmi? Azərbaycan Rusiyaya hansı formada etirazını çatdırmalıdır? **Politoloq Qabil Hüseynliyə** görə, Kremlin həm sülh siyasəti apardığını elan etməsi, həm də işğalçı tərəfə kreditlə silah satması paradoksal bir durum yaradır: "Minsk Qrupunun həmsədri olan və bitərəf olmalı olan bir dövlət işğalçı Ermənistanı başdan-başa silahlandırır. Ermənistan nə qədər ağlayıb sızlasa da əslində hazırda dünyanın ən çox silah və hərbi baza yığnağı olan ölkələrindəndir. Məsələn, Rusiyanın iki hərbi bazası Ermənistandadır və bir bazanın yerləşdirilməsi ilə bağlı da artıq razılaşma əldə olunub. Ermənistanda təkcə 102-ci briqadada 12 mindən çox əsgər, təxminən 120-dən çox tank var. Aviasiya bazasında isə təxminən 50 ədəd SU34, 50 ədəd MİQ 29 markalı qırıcı təyyarələr yerləşdirilib. Bütün bunlardan əlavə, guya Ermənistan Rusiyadan kreditlə silah alır. Əvvəla, kreditin 200 milyon dollar olması şübhə doğurur. Çünki mütəxəssislər hesablayıblar ki, döyüş şəraitində olmayan adi bir korpusun bir aylıq təlimlər daxil, xərcləri 200 milyon dolları keçir. Mən Rusiyanın Ermənistana 200 milyon dollarlıq kredit açdığı qənaətində deyiləm. Bu məbləğ ən azı 1 milyard dollar civarındadır. Rusiyanın Ermənistana verən əli çox səxavətlidir. Vaxtilə Boris Yeltsinin dövründə 1 milyard dollarlıq silah verilmişdi, sonra Gürcüstandan çıxarılan rus qoşunlarının bütün döyüş texnikası və hərbi ləvazimatı Ermənistana ötürüldü. Onun da kiçildilmiş məbləği 800 milyon dollar idi. Belə təəssürat yaranır ki, Rusiyanın Ermənistana verdiyi silahlar Ermənistanın özü üçün deyil. Həmin silahlar Dağlıq Qarabağa - Azərbaycan ərazisinə göndəriləcək. Ermənistanda daha silah qoymağa yer də yoxdur. Azərbaycan isə Rusiyaya nota ilə bildirib ki, onun Ermənistana satmaq istədiyi silahlar Azərbaycan torpaqlarında peyda olmamalıdır. Rusiya bu barədə də, hər halda, "belə olmayacaq" kimi ifadə işlədib. Ermənistan da hiyləgərliyə əl atır, tanınmamış qondarma "respublika" ilə ikili əlaqə yaratmaq barədə Ermənistan parlamentində müzakirələr başlayır".

**Politoloq hesab edir ki, bugünlərdə Rusiyanın Azərbaycana özü yeriyən qaubitsalar göndərməyə başlaması guya müəyyən bir balansı gözlənildiyini göstərmək üçündür:** "Azərbaycan işğala məruz qalmış tərəfdir. Ona silah verilməsi ilə işğalçıya silah verilməsinin arasında böyük fərq var. Ermənistana silah göndərilməsi Rusiyanın bəyan etdiyi prinsiplərə daban-dabana ziddir. Çünki aprelin əvvəlində 4 günlük müharibədən sonra Rusiya qəti surətdə bəyan etdi ki, prosesin nizamlanması üçün bundan sonra intensiv sülh prosesinə başlanılacaq, bu prosesə şəxsən prezident Putin özü məşğul olacaq və qısa vaxtda barışığa nail olunmaq üçün əllərindən gələn bütün imkanları işə salacaqlar. Amma çox keçmədi ki, Rusiya Ermənistana silah göndərməyə başlayıb və üstəlik də Ermənistanda üçüncü Rusiya hərbi bazasının yaradılması haqqında razılıq əldə edilib. Beləliklə, Rusiya Azərbaycanın əsəblərini tarıma çəkən hərəkətlər edir. Sülh prosesi yaratmaq əvəzinə işğalçı tərəfə silah göndərmək o deməkdir ki, təcavüzkarı daha da şirnikləndirirsən, yeni təcavüz addımlarına sövq edirsən, üstəlik də danışıqlar və sülhyaratma prosesinin yoluna ciddi əngəllər qoyursan. Rusiya bütün tarix boyu sübut edib ki, o, bütün münaqişələrdə yaxşı münsif deyil. Rusiya bütün münaqişələr zamanı özünün strateji maraqlarını ön plana çıxarır. Bu səbəbdən də Qarabağ məsələsində ona ümid etmək özünü aldatmaqdan başqa bir şey deyil".

**Belə vəziyyətdə Azərbaycan hökuməti və cəmiyyətinin Rusiyaya hansı şəkildə sərt etiraz etməsinin gərək olub-olmadığına gəlincə, politoloq dedi ki, etiraz məsələsində bir az ehtiyatlı olmaq lazımdır:** "Ermənistanda Rusiyanın bayrağını yandırırlar, ayaqlar altına atırlar. Ermənistan, ermənilər Rusiyanın sevimli balalarıdır və bu səbəbdən Moskvada onların etirazlarını xoşluqla qarşılayırlar. Azərbaycanın sərt etiraz addımlarına qarşı isə Rusiya müxtəlif məkrli cavablar verə bilər. Əlbəttə, jurnalistlər və KİV səviyyəsində Rusiyanın Ermənistanı silahlandırması tənqid edilir. Amma hökumət səviyyəsində və ictimai etirazlar forması ilə ölkədə anti-Rusiya əhval-ruhiyyəsinin qızışdırılmasına ehtiyac görmürəm. Bu, Azərbaycana və onun həm bölgədəki, həm Rusiyadakı maraqlarına ziyan gətirə bilər".

❑ **Etibar SEYİDAĞA**



## İsa Qəmbər: "Ermənistan növbəti çox ciddi səhvə yol verir"

**"Hesab edirəm ki, Ermənistan növbəti çox ciddi səhvə yol verir və bu prosesi nə qədər tez dayandırsalar, o qədər yaxşıdır. Çünki qondarma DQR-in tanınması danışıqlar prosesinə ölümcül zərbə deməkdir. Təbii ki, belə addımlardan sonra danışıqlar prosesi bütün əhəmiyyətini itirir".**

Virtualaz.org xəbər verir ki, bunu Ermənistan parlamentinin və hökumətinin "DQR"in tanınması istiqamətində son addımlarını dəyərləndirən azərbaycanlı siyasətçi İsa Qəmbər "Qovorit Moskva" ("Danışır Moskva") radiostansiyasına müsahibəsində bildirib.

Lakin siyasətçi ümid etdiyini bildirib ki, Ermənistan geri çəkiləcək və qanun layihəsini qəbul etməyəcək. O, bunu, sadəcə olaraq, Azərbaycana təzyiq cəhdi kimi qiymətləndirib.

YENİ MÜSAVAT
N 98 (6419) 6 may 2016

# Qarabağdakı 4 günlük müharibənin siyasi diktəsi




## Azərbaycan referendum ideyasından çəkilir - "sıfır varianti" anonsu

### Sülh prosesini konstruktiv məcraya yönəltmək üçün Bakı unikal fürsətə malikdir; separatçı qurumun tanınması ətrafında gedən oyunların daha bir pərdəarxası; işğalçı aprel məğlubiyyətindən sonrakı ilk danışıqlardaca Azərbaycanın iradəsini görməlidir, əks halda...

**Apreldəki 4 günlük savaşdan sonra Qarabağ konflikti ətrafında qeyri-müəyyənlik davam edir. Azərbaycandan ciddi hərbi zərbə yeyən və yeni situasiya ilə heç cür barışmaq istəməyən Ermənistan sülh danışıqlarında zəif görünməmək naminə dəridən-qabıqdan çıxmaqda, müxtəlif önləyici vasitələrə əl atmaqdadır. Absurd şərtlərin irəli sürülməsi, Rusiyaya qarşı etiraz aksiyaları, separatçı rejimi tanımaqla bağlı şantaj-hədələr şübhəsiz ki, danışıqlar masası arxasında Azərbaycandan zəif görünməməyə hesablanmış gedişlərdir.**

Belə vəziyyətdə Azərbaycanın beynəlxalq hüquqa söykənən qəti mövqe ilə irəli çıxması çox vacibdir. Bu xüsusda srağagün x**arici işlər naziri Elmar Məmmədyarovun** Çexiyada "Vişeqrad qrupu" (V 4) və "Şərq Tərəfdaşlığı" ölkələrinin xarici işlər nazirlərinin görüşündə etdiyi çıxış kifayət qədər prinsipiallığı ilə diqqət çəkir.

**Çıxışında beynəlxalq birliyin ölkəmizin suverenliyi və ərazi bütövlüyünü tanıdığını və dəstəklədiyini deyən nazir ardınca söyləyib:** "Sülh və sabitlik üçün yol xəritəsi aydındır və o, beynəlxalq hüquqa əsaslanır. Azərbaycan öz ərazi bütövlüyünü güzəştə getməyəcək. Münaqişənin həlli BMT-nin 4 məlum qətnaməsi əsasında təmin olunmalı, Ermənistanın işğalçı qüvvələri BMT TŞ-nin qətnamələrində tələb olunduğu kimi, dərhal və qeyd-şərtsiz, tam şəkildə işğal olunmuş ərazilərdən çıxarılmalı və məcburi köçkünlərin öz doğma torpaqlarına təhlükəsiz şəkildə qayıtması təmin edilməlidir".

E.Məmmədyarovun son açıqlaması əslində Bakının Dağlıq Qarabağın statusu məsələsində hara qədər güzəştə gedəcəyini aydın göstərir - güzəşt Azərbaycanın ərazi bütövlüyü hesabına olmayacaq! Nazirin "Ermənistanın işğalçı qüvvələri BMT TŞ-nin qətnamələrində tələb olunduğu kimi, dərhal və QEYD-ŞƏRTSİZ (seçdirmə bizimdi - S.S.), tam şəkildə işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmalıdır" ifadəsi qənaətimizi gücləndirir.

***

O da diqqətçəkicidir ki, baş diplomatımızı çıxışında ilk dəfə olaraq öz müqəddəratını təyinetmə prinsipini də özündə ehtiva edən "Madrid prinsipləri"ndən söz açmayıb. Başqa sözlə, Bakı bununla bir növ anons verir ki, Dağlıq Qarabağın yekun statusu məsələsində referendum ideyasından çəkilə bilər. Yəni söhbət "sıfır variantı"na qayıtmaqdan - muxtariyyətdən gedir.

Azərbaycan Konstitusiyasına görə də ölkənin ayrıca götürülmüş hissəsində referendum keçirilə bilməz. Ölkə miqyasında Qarabağa dair keçiriləcək referendumun nəticəsi isə bəri başdan bəllidir - xalq təbii ki, öz ərazi bütövlüyünü dəstəkləyəcək. Eləcə də köçkünlər geri qayıtsa belə, Qarabağda reallaşacaq referendumun nəticəsi indidən məlumdur - erməni əhali ayrılmağa səs verəcək. Bu üzdən birinci halda erməni tərəf, ikinci halda isə Azərbaycan referenduma razılıq verməyəcək. O zaman boş yerə vaxt itirməmək üçün bu ideyanı gündəmdən birdəfəlik çıxarmaq məqbul olmazıdımı?

Əslinə qalsa, Ermənistanda aprel savaşından sonra separatçı qurumu tanımaqla bağlı gedən oyunlar, Azərbaycanın, həmsədr ölkələrin tanınma ilə şantaj edilməsi həm də referendum ideyasını *(təbii ki, erməni variantında)* gündəmdə saxlamağa yönəlib. Ermənilərin yəqin qulağına çatıb ki, Azərbaycan 4 apreldən sonra "öz müqəddəratını təyin etmə" prinsipindən imtina edə bilər.

**Ermənistanın özü isə əlbəttə ki, birtərəfli qaydada tanınmaya getməz. Əks halda, bu, siyasi intihar demək olardı. Rusiya da bunu istəmir və son olaraq xarici işlər naziri Sergey Lavrov eyni mövqeyi bir daha ortaya qoyub, İrəvanın belə bir addıma getməyəcəyinə əminlik ifadə edib, eyni zamanda diplomatik tərzdə Ermənistana xəbərdarlıq göndərib.**

**Sitat:** "Ermənistan parlamentinin Dağlıq Qarabağın müstəqilliyini tanımaqla bağlı müzakirə aparacağı ilə bağlı xəbərlərdən təlaş keçirməyə əsas yoxdur, çünki Ermənistan bəyan edib ki, regionun statusu birtərəfli qaydada müəyyən edilməyəcək. Ermənistan bu məsələni müzakirə etmir. Bu, parlamentin 2 üzvünün təklifidir. İrəvanda olanda və daha sonra həmkarımla telefon danışığı zamanı, eləcə də aprel hadisələrindən sonra o, Moskvaya gələrkən aydın şəkildə bildirdilər ki, Ermənistan münaqişənin sülh yolu ilə həllinə sadiqdir. Bu, o deməkdir ki, Dağlıq Qarabağın statusu birtərəfli qaydada deyil, ümumi razılıq əsasında müəyyənləşəcək".

***

**Yaxın vaxtlarda isə həmsədrlərin iştirakı ilə Qarabağ münaqişəsi üzrə görüş planlaşdırılır. Bunu da Lavrov bəyan edib.** "Görüş planlaşdırırıq, çünki məsələ belə yüksək diqqət tələb edir. Tezliklə yəqin ki, təmasları razılaşdıracağıq. Şübhəsiz ki, həmsədrlərin və münaqişə tərəflərinin iştirakı ilə. Axı bu iş belə kollektiv format tələb edir", - deyə o vurğulayıb.

Qeyd edək ki, aprel müharibəsindən sonra bu, ilk görüş olacaq. Ondan sonra yəqin ki, həmsədrlər tərəflərlə də təmas quracaq. Çox vacibdir ki, Azərbaycan ilk görüşdəcə yeni situasiyanın diktəsi ilə daha prinsipial mövqe ortaya qoysun, öncəliklə də Dağlıq Qarabağın statusu ilə bağlı Azərbaycan üçün tələ sayılan referendum söhbətini rədd eləsin, illər öncə aktual olmuş Azərbaycan tərkibində muxtariyyət formuluna qayıtsın.

İndi rəsmi Bakının işğalçı ölkə və həmsədr ölkələr qarşısında daha qətiyyətli iradə ortaya qoymasına ciddi maneə yoxdur. Hətta təəccüblü olardı belə iradə ortaya qoyulmasaydı. Bu, 22 ildir iqtidardakı "Qarabağ klanı"nın radikal və əsassız vədlərlə yemlədiyi erməni cəmiyyətinin problemidir ki, muxtariyyət məsələsini süngü ucunda qarşılayacaq.

**Ancaq hamı əmin ola bilər: Azərbaycan ordusunun bircə rayonu azad eləməsi yetər ki, muxtariyyət məsələsi erməni cəmiyyətində dərhal populyarlıq qazansın. Sabiq prezident Levon Ter-Petrosyan hələ 1997-ci ildə necə demişdi:** "Bizə təklif ediləni indi götürməsək, vaxt gələcək yalvaracağıq". Vaxt gedir. Az sonra yüksək muxtariyyət vədi də edilməyə bilər.

❑ **Siyasət şöbəsi**



# AB Türkiyə üzərindən vizanı götürdü - bəs Azərbaycan...

## Şahin Cəfərli: "Bu, münasibətlərin səviyyəsinə və qardaşlığa zidd olan absurd durumdur"



**Avropa Birliyi Türkiyə ilə arasında olan viza rejiminin aradan qaldırılması barədə mayın 4-də keçirdiyi iclasında qərar qəbul edib. Əgər Avropa Şurası da qanun layihəsini qəbul etsə, o zaman qərar iyulun 1-dən qüvvəyə minəcək.**

Bunun üçün Türkiyə qurumun əsas kriteriyaları sayılan 72 şərtə əməl etməlidir. Rəsmi Ankara artıq birliyə daxil olan 28 ölkənin vətəndaşları üçün vizaları ləğv edib. Avropa Birliyinin Türkiyə barədəki qərarından sonra Azərbaycanın qardaş ölkə ilə münasibətlərinin ən yüksək səviyyədə olmasına baxmayaraq, hələ də viza rejimini ləğv etməməsi yenidən gündəmə gəlib.

Avropa Birliyinin Türkiyə ilə bağlı qərarı Azərbaycanın qardaş ölkə ilə olan viza qərarını dəyişdirə bilərmi?

**İqtidaryönlü deputat Fəzail Ağamalı** hesab edir ki, Türkiyə ilə bağlı Azərbaycanın viza qərarının arxasında bilinməyən məqamlar var: "Azərbaycan Türkiyə ilə yüksək səviyyədə münasibətlərə malikdir. Türkiyə Azərbaycan üçün, ölkəmiz də Türkiyə üçün qardaş dövlətdir. Sözün həqiqi mənasında strateji müttəfiqik. Demək olar ki, bütün sahələrdə əlaqələrimiz yüksək səviyyədədir. Buna heç kəsin şübhəsi yoxdur. Viza rejimində, görünür, bilmədiyimiz və cəmiyyət üçün məlum olmayan məsələlər var. Türkiyənin özü də bunun üzərinə gedib, təkid göstərmir. Nə zaman bu məsələ gündəmə gəlirsə, həmin vaxt xüsusi razılaşma əsasında təxirə salınır. Düşünürəm ki, gec-tez viza rejiminin aradan qaldırılmasının yaxın vaxtlarda şahidi olacağıq. Görünür, ortaqlıqda hələ ki başqa məqamlar var. Bu məqamlar yəqin ki, ciddi xarakter daşıdığı üçün Azərbaycan viza rejimini aradan qaldıra bilmir. Mən, sadəcə, gümanlarımı deyirəm. Amma əminəm ki, bu məsələ reallaşsa, heç bir problem olmayacaq. Sadəcə, zamana ehtiyacımız var. O zamanı gözləməliyik".

**Politoloq Şahin Cəfərli türk vətəndaşlarından viza tələb etməyin xoşagəlməz hal olduğu qənaətindədir:** "Azərbaycan-Türkiyə münasibətlərinin gündən-günə inkişafına və dərinləşməsinə baxmayaraq, Azərbaycanın hələ də Türkiyə vətəndaşlarından viza tələb etməsi xoşagəlməz haldır. Bu, münasibətlərin səviyyəsinə və qardaşlığa zidd olan absurd bir durumdur. Açığı, bunun səbəblərini izah etməkdə çətinlik çəkirəm, elə Azərbaycan rəhbərliyi də çətinlik çəkir. Hələ də Türkiyəyə viza rejimi tətbiq edilməsinin səbəbləri haqda rəsmi şəxslərdən dolğun bir açıqlama eşitməmişik".

**Politoloq məsələ ətrafında gəzən iddialara da toxundu:** "Bəzi iddialara görə, bu, onunla bağlıdır ki, Azərbaycan Türkiyə vətəndaşları üçün vizaları ləğv etsə, gərək İranla bağlı da eyni addımı atsın, bu isə ölkənin təhlükəsizliyi ilə əlaqədar müəyyən problemlərə səbəb ola bilər. Lakin bunun əsaslı arqument olduğunu düşünmürəm. Azərbaycanın Türkiyə ilə qarşılıqlı münasibətlərinin səviyyəsi ilə İranla qarşılıqlı əlaqələrinin səviyyəsi eyni deyil. Hər ölkə ilə fərqli xarakterdə münasibətlər var. Türkiyə ilə viza rejimini ləğv etməyimizə görə İranın hər hansı etiraz, narazılıq bildirməyə haqqı yoxdur, çünki Azərbaycan müstəqil, suveren dövlət kimi öz xarici siyasətini özü müəyyənləşdirir, qərarlarını özü verir. İnanmaq istərdim ki, Azərbaycan hökuməti yaxın vaxtlarda bu məsələyə yenidən baxacaq və münasibətlərdəki bu çatışmazlığı aradan qaldıracaq".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 98 (6419) 6 may 2016

# “Bu gün televiziyalar antivətənpərvərlik təbliğatı ilə məşğuldular”

**“Təbrizdə stadionda 90 min gənc “türkəm” deyib hayqırırsa, bu, çox böyük zəfərdir. O gəncləri görəndə anlayırsan ki, onlar dünyanı fəth edən fatehlərin nəvə-nəticəsidir”**

## Kamran Həsənli: “Peşəkar televizyonçular efirlərdən uzaqlaşdırılır, onların yerinə zövqsüz və qeyri-peşəkarlar gətirilir”

**“Sizin saat”, “Axşam-axşam”, “Günəbaxan” verilişlərinin aparıcısı olmuş, şoumen Kamran Həsənli “Yeni Müsavat”ın redaksiyasında olub, qəzetimizə geniş müsahibə verib. Vətənpərvər, turançı, türkçü, millətçi və bu ideyaların təbliğatçısı kimi tanınan teleaparıcı ilə görüşümüz mayın 3-də olduğundan, söhbətə həmin gün keçirilən Türkçülük bayramından başladıq:**




***- Bu gün öncə Türkçülük günüdür, siz də türkçüsünüz. Necə düşünürsünüz, bu bayramı təmtəraqlı keçirməyə ehtiyac varmı?***

- Bu günün bayram olaraq qeyd edilməsini çox istəyərəm. Türkçülük gününün təmtəraqlı keçirilməsi üçün gərək türk xalqları özlərini türk saysın, türk olduğunu anlasın. Türklər türkdilli və türksoylu xalqlar sayılsalar da, müxtəlif imperiyaların əsarətində olduqları, beyinləri boşaldıldığı üçün çoxları özünü türk saymır.

**“Bir televiziyanın cəbhəyə toy makiyajında, geyimində müğənni aparması, əsgərin də uniformada rəqs etməsi vətənpərvərliyi təbliğ etmir - bu, antitəbliğatdır, faciədir”**

Özbəklər, qazaxlar özlərini türk hesab etmir. Bu, təkamülün bir hissəsidir, müəyyən, böyük mərhələni keçmək lazımdır. Bu gün Türkiyə türkləri, almanlar, ingilislər, yaponlar bu mərhələni keçiblər, milli identifikasiyanı anlayır, önəmli olduğunu başa düşüb onun üzərində bütün siyasətini, iqtisadiyyatını qurub.

***- Deyirsiniz ki, türk xalqları türk olduğunu tam dərk etməyib. O zaman onlar hansı ideologiya altında birləşib dünyanı fəth ediblər?***

- İnsanlar daim ideologiya altında təşkilatlanmır, onlar mental düşüncə ətrafında da birləşə bilirlər. O zaman türk xalqlarının əsas qəhrəmanlığı çapıb gətirmək idi, onlar yaylaq və qışlaqda yaşayıblar, əkinçiliklə məşğul olmayıb, bu işə pis baxıblar. Düşünüblər ki, kişi at belində olar, tapıb gətirib ailəsini dolandırar, qazanar. Onlar şəhərlərin, övladlarının adını Qazan qoyublar. Qələbə də qazancdır. Tural “dur, al”, Alqayıt “al, qayıt” deməkdir. Bu adlar o zamandan yaranıb. Onlar mental düşüncənin ətrafında birləşiblər. Müəyyən ideologiyanın ətrafında birləşmək Avropanın özündə 18-ci əsrdən sonra başlayıb. Türkiyədə 1904-cü, Azərbaycanda 1918-ci ildən sonra milli ideologiyanın ətrafında birləşmişik. Bu gün Təbrizdə stadionda 90 min gənc “türkəm” deyib hayqırır. Bu, çox böyük zəfərdir. O gəncləri görəndə anlayırsan ki, onlar dünyanı fəth edən fatehlərin nəvə-nəticəsidir. Onlar dünyanı fəth edə bilərlər. Düzdür, indi fatehlik zamanı deyil, elm, düşüncə ilə dünyanı qazanmaq lazımdır.

***- Əvvəllər proqramınızda vətənpərvərliyi, türkçülüyü təbliğ edirdiniz, xalqa mesaj ötürürdünüz. Bununla bağlı sizə irad bildirilibmi?***

- Mən televiziyaya ilk dəfə canlı efirlə çıxmışam. 2000-ci ildə mənə iki canlı efir verilib. Heç vaxt irad bildirilməyib, apardığım təbliğata görə təşəkkür edilib. 2008-ci ildə də irad bildirilmədi, verilişi bağladılar. 2008-ci ilə qədər vətənpərvərlik, türkçülüklə bağlı mesajlar vermişəm. Hər xalq öz milli və irqi mənsubiyyəti ilə qürur duymalıdır. Türk olmağımla fəxr edirəm.

***- Aprel ayından cəbhədə başlayan gərginlik hələ də davam edir. Televiziyalarımız isə ölkədə yaşanan vəziyyətə uyğun proqram siyasətini dəyişmədi. Onların bu addımını necə qiymətləndirirsiniz?***

- Televiziyada peşəkarlar azdır, onlar idarəçilikdən kənarda qalıblar. Televiziya idarəçisi bu sahədə uğur qazanmış adam olmalıdır. Televiziya rəhbəri bu işi anlamırsa, o, təbliğat apara bilməz. Rusiya və Türkiyə televiziyalarının apardığı təbliğatın şahidi oluruq. Xoşumuza gəlməsə də, Rusiyanın gözəl təbliğat apardığını etiraf etməliyik. Onların vətənpərvərlik kateqoriyası yalan üzərində qurulsa da, təbliğatı gözəl bacarırlar. Türkiyə azad, demokratik düşüncə ilə təbliğat aparır. Türkiyə türkləri ölkə, vətən məsələsində birləşə bilirlər. Serialları, proqramları mövcud duruma köklənir. Onlar tək “Kurtlar Vadisi” serialı ilə fikirləri dəyişdilər, Polat Alemdara qədər Türkiyədə Braziliya serialları sevilirdi, hər kəs o serial qəhrəmanına oxşamaq istəyirdi. “Kurtlar Vadisi”ndən sonra özlərini Çakıra, Polada oxşatdılar, millətçiliyi, dövlətçiliyi anladılar. Bizim serialların əksəriyyəti isə evlənməkdən, ikiarvadlılıqdan, qayınanadan bəhs edir. Bir televiziyanın cəbhəyə toy makiyajında, geyimində müğənni aparması, əsgərin də uniformada rəqs etməsi vətənpərvərliyi təbliğ etmir. Bu, antitəbliğatdır, faciədir. Cəbhədə yaşananlar efirdə öz əksini tapmadı, vətənpərvərlik verilişləri göstərilmədi. Ümumiyyətlə, intellektual insanlar televiziyada sıxışdırılır.

**“Türkçülüklə bağlı efirdən apardığım təbliğata görə heç vaxt mənə irad bildirilməyib, əksinə, buna görə təşəkkür almışam. Lakin 2008-ci ildə...**

***- Dövlət peşəkarlara meydan versə, televiziyamız düzələrmi?***

- Efir bu gün dövlətin siyasətidir. MTRŞ dövlət qurumudur, onlar televiziyanın düzəlməsini istəyir, lakin istəklə işlər düzəlmir. Televiziyada peşəkarlar işləmirsə, vəziyyət düzəlməz.

***- Amma bir ANS nümunəsi də var.***

- ANS bir məktəbdir, lakin meydanda tək qalıb, üslubu və düşüncəsi ilə marjinallaşıb. Bəzi telekanallar o qədər toy ab-havası yayırlar ki, insanlar o yönə istiqamətlənir. 15 il çal-çağır görən insan ona öyrəşir. Qeyri-peşəkarlar həyat tərzini efirə gətirib. Total zövqsüzlük millət üçün faciədir. Televiziyamız hazırda bu işlə məşğuldur. O qədər total zövqsüzlük var ki, ANS də çalışır o tərəfə əyilsin ki, kimsə ona baxsın və istədiyi sözü az da olsa, desin. ANS mədəniyyəti ilə ümumi televiziya mədəniyyətsizliyinin küncündə qalıb.

Bu gün mən televiziya üçün yol xəritəsi hazırlasam, əlimdə səlahiyyət olsa, iki ay müddətinə bütün efiri saxlayaram, ancaq heyvanlar haqda verilişlərin yayımlanmasına göstəriş verərəm ki, təlaş dayansın. Televiziyada olan qeybət, toyxana, məişət söhbətləri yığışdırılsın. Ondan sonra intellektual təbəqə üçün verilişlər hazırlayaram. İndi ölkədə ancaq müğənnilər, xüsusilə toy müğənniləri populyardır. Əvvəllər hər janrın populyarı vardı, indi isə vəziyyət çox pisdir.

***- Belə başa düşdüm ki, televiziyanın toyxanaya çevrilməsinə səbəb qeyri-peşəkarlardır.***

- Əlbəttə. Mən “Space” telekanalında işləyəndə iclaslarda rəhbərlik dəfələrlə mənə sübut etməyə çalışıb ki, “Sevimli şou” əla verilişdir, onun kimi olmaq lazımdır. Bəzən buna görə mübahisə düşürdü. Onlar anlamır ki, xalqa maarifləndirici veriliş lazımdır. Mənim Mikayılla problemim yoxdur, gözəl münasibətimiz var. Onun proqramını bəyənib-bəyənməməyim şəxsi fikrimdir.

***- Deməli, “Space” rəhbərliyi Mikayıl Güləddinoğlunun təsiri altındadır?***

- Xeyr, Mikayıl onların təsiri altındadır. “Space” rəhbərliyi televiziyanı elə görür, onlar elə başa düşür ki, xalq toyxana istəyir. Verilişin toyxanaya çevrilməsində aparıcının 10 faiz günahı var, onun ideyasına, əqidəsinə önəm vermirlər. Televiziya bir millətin güzgüsüdür, o, sənə özünü göstərir. Orada ceyran göstərsələr, ceyrana, meymun göstərsələr, meymuna çevriləcəksən. Bizə meymun göstərsələr də, biz elə deyilik.

***- Xarici ölkələrdə sənət adamları intellektualdır, ölkədə, cəmiyyətdə baş verəndən məlumatlıdır, mənən azaddırlar. Azərbaycanlı əksər müğənnilər, ifaçılar niyə savadsızdılar?***

- Ruslar sovet irsi ənənəsini davam etdirdi. Bizim televiziya tamaşalarımız rus tamaşalarına daim qalib gəlirdi. Biz o ənənəni 2005-ci ildə itirdik, onu toya, pula qurban verdik. İntellektsiz insanlar televiziyaya doldu. Sizə maraqlı nümunə deyim. “İstintaq” filmində Rusiyanın aktyor məktəbinin güclü nümayəndəsindən biri Aleksandr Kalyaginlə Həsən Məmmədov üz-üzə oturur, Məmmədov aktyor oyunu ilə Kalyagini üstələyir. İndi elə aktyor varmı? Poeziyada, rəssamlıqda, teatrda o ənənəni itirdiyimiz üçün hazırda total zövqsüzlük hökm sürür. Hazırda məşhur olan müğənnilərin çoxu “Sizin saat” verilişində ilk debütlərini ediblər. Çünki mənim musiqi təhsilim var və yaxşı musiqiçini tanıyıram. Televiziya rəhbəri musiqi anlayışı olan teleaparıcıya musiqili veriliş aparmağı həvalə etməlidir. “Sizin saat” musiqili veriliş idi, ondan sonra bir çox belə veriliş açıldı, teleaparıcı olaraq kiminsə sevgilisi gəldi, kiminsə pullu dostu oldu. O gələn kimi televiziyanı bazara çevirdi. İstedad axtarmadı, kim pul verdisə, onu efirə çıxartdı. O pul ortaya gələndən sonra dedilər ki, Kamran, sən 3 manat da gətirmirsən, üstəgəl, sənə maaş veririk. Millət, dövlət deyəndə də, pul qazanmaq lazım olduğunu deyib, pul gətirən adamları bizə nümunə göstərdilər. Xarici ölkələrdə hər təbəqənin öz telekanalı, verilişi var. Bizim bütün telekanallar eyni sifətdədir.

***- Kamran Həsənli sevmədiyi bu mühitdə özünü necə hiss edir?***

- Mən başqa dostlar əhatəsindəyəm, bir-iki nəfərdən başqa heç kimlə əlaqə saxlamıram, məni şou-biznes məclislərində görə bilməzsiniz. Mən intellektsiz insanlar arasında marjinallaşmışam. Bizim sənətçilərin çoxu kitab oxumaq istəmir, onlar düşünürlər ki, intellekt lazım deyil. Yaşamaq üçün pul yetərlidir.

**“Mən ”Space" telekanalında işləyəndə iclaslarda rəhbərlik dəfələrlə mənə sübut etməyə çalışıb ki, “Sevimli şou” əla verilişdir, onun kimi olmaq lazımdır. Bəzən buna görə mübahisə düşürdü"**

***- Fikriniz mənə maraqlıdır. Sizcə, kişi aparıcı hansı verilişi aparmamalıdır?***

- Kişilərin evlilik verilişi aparmasını sevmirəm. Kişinin xislətində evlilik, cehiz, qayınana anlayışı yoxdur. Kişi o verilişi aparanda qadınlaşır. Bəzən deyirlər ki, kişilər mətbəx verilişi aparmaz. Məncə, yanlış fikirdir. Kişilər sözügedən proqramı gözəl aparar. Kişilərin damaq dadı qadınlardan fərqlidir. Elə yeməklər var ki, yanında çaxırı olmalıdır, o yeməyi biz gözəl hazırlaya bilərik. Ən yaxşı aşpazlar kişilərdir.

***- Əvvəllər Kamran Həsənli reklam çarxlarında maraqlı obrazlarda - aşıq, aşpaz, taksi sürücüsü və s. kimi görürdük. Reklam bazarından niyə uzaqlaşdınız?***

- Reklam bazarı cılızlaşdı. Biz reklam çəkəndə müxtəlif obrazlar fikirləşirdik, istəyirdik ki, rəqabət olsun. İndi onlardan daha yaxşılarını çəkə bilərəm. Lakin hazırda hərə öz qohumunu bir prodakşının başına gətirib və pul yeyilir. Reklamda da divar çəkilir, içkini, toyuğu göstərir, restoranda gülərüz personal, şən klounlar olduğu deyilir. Kloun şən olar da. Reklam çəkənlər pul qazanmır, əziyyət çəkmədən pul yeyir. Bu bizim mental qüsurumuzdur. Hazırda tamaşaçılar deyirlər ki, televiziyaya baxmırlar.

***- Efirə qayıdacaqsınızmı və ya bunun üçün mübarizə aparırsınız?***

- Mən həyatda mübariz adam deyiləm. Yalnız ideya uğrunda mübarizəm. Hər gün gedib bir televiziyanın qapısını döyə bilmərəm. Pis xasiyyətim var, bəzən buna görə özümü danlayıram. Layihə ilə getdiyim televiziyada məni yarım saat gözlətsələr, uzun müddət özümə gələ bilmərəm. Əlimdə layihələr var, onları gerçəkləşdirmək istəyirəm. Lakin telekanalların mənzərəsi məni qane etmir, oraya uyğun adam ola bilmirəm. Hazırda peşəkar, təcrübəsi, həyat qüvvəsi olan, insanların da rəğbətini qazanan mütəxəssislər kənarda qalıb. Ona görə də hər kəs televiziyadan şikayət edir. İndi tullanıb-düşmək dəbdədir. Ona qalsa, birinci dəfə biz tullanıb-düşmüşük, amma onu da çərçivə içərisində etmişik, tullanıb-düşməyin də öz qayda-qanunu var. Dəli kimi ortaya düşmək olmaz.

**“İndi tullanıb-düşmək dəbdədir. Ona qalsa, birinci dəfə biz tullanıb-düşmüşük, amma onu da çərçivə içərisində etmişik, tullanıb-düşməyin də öz qayda-qanunu var. Dəli kimi ortaya düşmək olmaz”**

***- Televiziyadan uzaqlaşmısınız. Bilirik ki, biznesinizdə problemlər yaranıb. Hazırda necə dolanırsınız?***

- Toydan və şou proqramlardan para qazanıram. Devalvasiyadan sonra toylar 40 faiz azalıb. Mən toyu tənqid etmirəm, toyları sevirəm. Mən efirin toyxanaya çevrilməsinin əleyhinəyəm. Məni toya mənimlə eyni fikirdə olan insanlar çağırır.

***- Siyasəti izləyirsinizmi?***

- Dünya və ölkədaxili siyasətlə maraqlanıram. Dünya siyasəti daha çox diqqətimi çəkir, çünki orada baş verənlər birbaşa bizə təsir edir. Son 5 ildə dünya siyasi proseslər nəticəsində dəyişir. Həyatım boyu qısa zamanda bu qədər dəyişiklik görməmişdim.

***- Qarabağın gələcək taleyi barədə nə düşünürsünüz?***

- Televiziya doğru təbliğat aparsa, insanlar məlumatlanar. Əgər nə baş verdiyini anlasaq, hər şey yoluna düşər. Tək qışqırmaqla məsələ həll olunmur. Bir dövlət iki tərəfə də silah satırsa, onların müharibə etməsini istəyir. Rusiya imperiyasının regionda təsiri azaldıqca, müharibə səngiyəcək.

❑ **Könül İBRAHİM,**
**Foto Məhəmməd TÜRKMƏN**